QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 209 (5440) 16 **noyabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# “Braziliya ilə Azərbaycan arasında siyasi əlaqələr yaxşı səviyyədədir”

*Prezident İlham Əliyev Braziliyanın xarici əlaqələr nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2

## Azərbaycanın Xarici İşlər Nazirliyi ilə Braziliyanın Xarici Əlaqələr Nazirliyi arasında anlaşma memorandumu imzalanıb

Azərbaycanın Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən ADA Universiteti ilə Braziliyanın Xarici Əlaqələr Nazirliyinin Rio Blanco İnstitutu arasında diplomatların treyninqi ilə bağlı qarşılıqlı əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayev, Braziliya tərəfdən isə bu ölkənin Azərbaycandakı səfiri Santyaqo Luis Bento Fernandes Alkasar imzalayıblar.




**Azərbaycan Prezidenti İlham Əliyev Moldovanın daxili işlər nazirini qəbul edib**



→ 2

**Parisdə Bakının “Expo 2025” Sərgisinə namizəd şəhər olması münasibətilə qəbul təşkil edilib**



→ 5

**Yeni Azərbaycan Partiyasının əsas ideyası olan sosial dövlət prinsipi sosial ədalətin bərqərar edilməsini vacib şərtə çevirmişdir**



→ 7

**“Dağlıq Qarabağ münaqişəsinin həlli prosesini ölü nöqtədən tərpətmək lazımdır”**



→ 6

**Mərkəzi Seçki Komissiyasının iclası keçirilib**



→ 6

**Azərbaycan-Bosniya və Herseqovina işgüzar görüşü keçirilib**



→ 9

→ 12

**Mübariz Əhmədoğlu: “İspaniya presedenti Dağlıq Qarabağ tənzimlənməsi üçün yeni resurslar yaratdı”**



→ 10

**İranda zəlzələ qurbanlarının sayı 474 nəfər oldu**



→ 16

**Dik Advokat Niderland millisindən ayrılır**



# “Braziliya ilə Azərbaycan arasında siyasi əlaqələr yaxşı səviyyədədir”

## *Prezident İlham Əliyev Braziliyanın xarici əlaqələr nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Braziliya Federativ Respublikasının xarici əlaqələr naziri Aloyzio Nunyes Ferreiranın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Braziliyanın xarici əlaqələr naziri Aloyzio Nunyes Ferreiranın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin inkişafı baxımından önəmini qeyd etdi. Əməkdaşlığımızın genişləndirilməsi istiqamətində bundan sonra da addımlar atmağın zəruriliyini qeyd edən Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu dedi və Braziliyanın xarici əlaqələr nazirinin Azərbaycana rəsmi səfərini bunun yaxşı göstəricisi kimi dəyərləndirdi. Gələcək illərdə qarşılıqlı iqtisadi əməkdaşlığa diqqət yetirilməsinin vacibliyini vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında ticarət dövriyyəsinin hələ ki, aşağı səviyyədə olduğunu bildirdi. İnvestisiya layihələrinə toxunan Prezident İlham Əliyev biznes dairələrinin birgə fəaliyyəti sayəsində daha da yaxşı nəticələrə nail olmağın mümkünlüyünü vurğuladı. Dövlətimizin başçısı Azərbaycan-Braziliya əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə və nazir Aloyzio Nunyes Ferreiranın ölkəmizə səfərinin yaxşı nəticələr verəcəyinə əminliyini ifadə etdi.

Braziliyanın xarici əlaqələr naziri Aloyzio Nunyes Ferreira öz növbəsində Prezident İlham Əliyevin əməkdaşlığımızın inkişaf etdirilməsi ilə bağlı dediyi fikirlərlə tam razı olduğunu bildirdi. Nazir əlaqələrimizin genişləndirilməsində qarşılıqlı səfərlərin önəmini vurğuladı. Braziliyalı nazir ölkəsinin Azərbaycan ilə əlaqələrin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsində çox maraqlı olduğunu dedi və bildirdi ki, ölkəmizə səfərinin əsas məqsədi bununla bağlı məsələləri müzakirə etməkdir.

Görüşdə Azərbaycan ilə Braziliya arasında iqtisadi, sərmayə qoyuluşu, biznes, turizm, təhsil, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Sloveniya Prezidenti Borut Pahora təbrik məktubu göndərib. Təbrikdə eyilir: “Hörmətli cənab Prezident, Sloveniya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan-Sloveniya əlaqələrinin genişlənməsi, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Sloveniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram”.

* * *

Prezident İlham Əliyev Akademik Əşrəf Hüseynovun 110 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Velosiped idmanının “BMX Racing” növü üzrə dünya çempionatının 2018-ci ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb.

# Azərbaycan Prezidenti İlham Əliyev Moldovanın daxili işlər nazirini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Moldovanın daxili işlər naziri Aleksandr Jizdanı qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Azərbaycan və Moldova hüquq mühafizə orqanları, o cümlədən Daxili İşlər nazirlikləri arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi, təcrübə mübadiləsi aparılmasının əhəmiyyəti vurğulandı, Moldovanın daxili işlər naziri Aleksandr Jizdanın ölkəmizə səfərinin bu əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

# Müasir Azərbaycan güclü və dünyəvi dövlətdir

## *İlham Əliyev: “Bizim əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti və rolu var”*




***Ulu Öndər Heydər Əliyevin zəkası ilə yaradılan Yeni Azərbaycan Partiyası müasir dövrdə beynəlxalq arenada tanınan və qəbul edilən nüfuzlu partiyalar sırasında öz mövqeyini qoruyub-saxlayan siyasi təşkilatdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədəki ictimai-siyasi vəziyyətin gərgin olduğu bir zamanda yaranan YAP ölkə tarixində yeni səhifələr açaraq, işıqlı yollara imza atdı.***

Ölkədə separatçılıq baş alıb getdiyi və qanunsuz silahlı dəstələrin insanlar üçün böyük təhlükəyə çevrildiyi bir zamanda cəmiyyətin sağlam qüvvələri - 91 ziyalı Ulu Öndər Heydər Əliyevə yeni bir partiyanın yaradılması və həmin partiyaya rəhbərlik etməsi ilə bağlı müraciət ünvanladı. Təbii ki, Azərbaycanı belə bir ağır vəziyyətdən xalqımızın Böyük Oğlu Heydər Əliyev kimi dövlət xadimi və bütün dünyada tanınmış bir şəxsiyyət xilas edə bilərdi. Əlbəttə, o dövrdə respublikada vəziyyət ağır idi və dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Bir tərəfdən, Ermənistanın hərbi təcavüzü davam edir, digər tərəfdən, ölkə daxilində iqtisadi, ictimai-siyasi böhran dərinləşirdi. Azərbaycan xalqı öz gələcəyini Ulu Öndər Heydər Əliyevlə bağlı görürdü.

Bütün çətinliklərə baxmayaraq, 21 noyabr 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Yeni Azərbaycan Partiyasının yaradılması insanlarda ruh düşkünlüyünü aradan qaldırdı və gələcəyə inam yaratdı. Yeni Azərbaycan Partiyası yarandıqdan sonra güclü dövlət yaratmaq istiqamətində fəaliyyətini davam etdirdi. YAP yarandıqdan altı ay sonra hakimiyyətə gəldi. Ulu Öndər Heydər Əliyevin xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdışı ictimai-siyasi mühiti tamamilə dəyişdirdi və insanlarda gələcəyə ümidləri artırdı. Azərbaycan bütün çətin sınaqlardan şərəflə çıxaraq, bugünkü sürətli inkişafın təməli qoyuldu. Təbii ki, ölkəmizdə sabitlik tam təmin edildikdən sonra, Azərbaycan inkişaf yoluna çıxdı. “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın gələcək inkişafının əsasını təşkil etdi. Ulu Öndər Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirdi, dövlətin ilk Milli Konstitusiyası qəbul olundu, hüquqi-demokratik dövlət quruculuğu istiqamətində lazımi addımlar atıldı və sosial-iqtisadi islahatlar həyata keçirildi. Azərbaycan uğurlu inkişaf yoluna qədəm qoydu. Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimində çıxış edən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev uğurların təməlinin 1992-ci ilin noyabrında qoyulduğunu bildirmişdi: “O vaxt Yeni Azərbaycan Partiyasının yaradılması nəticəsində, Azərbaycan öz dövlət müstəqilliyini qoruya və möhkəmləndirə bilib. Bu gün bütün dünya görür ki, Azərbaycan özünə güvənən, öz daxili resurslarına arxalanan və müasir ənənələrə bağlı olan güclü dünyəvi dövlətə çevrilib”.

### “BU GÜN PARTİYAMIZIN FƏALİYYƏTİ, İDEYALARI, APARDIĞI SİYASƏT GƏNC NƏSİL ÜÇÜN DƏ CƏLBEDİCİDİR VƏ BU, ÇOX MÜSBƏT HALDIR”

Bu gün YAP-ın yaranmasından 25 il ötür. 25 il ərzində YAP öz ətrafında Ulu Öndər Heydər Əliyev ideyalarına bağlı 700 mindən çox insanı birləşdirir və onların 40 faizi gənclərdir. Gənclərin partiyada üstünlük təşkil etməsinin səbəblərindən biri də odur ki, Yeni Azərbaycan Partiyası getdikcə ideya baxımından gəncləşir. Öz fəaliyyətində yeni-yeni ideyalar ortaya qoyur. Partiyada bugünkü gənclərin siyasi maraqlarını, yaxşı mənada təmin edəcək faktorlar var. Onların yaxşı təhsil almaları və məşğulluq probleminin həlli ilə bağlı çox böyük işlər görülür. Bu gün Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi ölkəmizin ictimai-siyasi həyatında özünü kifayət qədər təsdiq edib. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır: “Bu, onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ etdiyi, bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir. İndi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı, əlbəttə, hər bir vətənpərvər insana əyani şəkildə göstərir ki, bugünkü iqtidarın apardığı siyasət yeganə düzgün siyasətdir”.

Bu gün də Ümummilli Liderə olan sevgi və etimad, Onun ideyalarına olan sədaqət, eləcə də, Cənab Prezident, partiyanın Sədri İlham Əliyevə olan inam və etimad davam etməkdədir. Bu gün Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilib. YAP bu gün mütəşəkkil siyasi qüvvədir. Eləcə də, YAP Cənubi Qafqaz regionunun ən güclü siyasi təşkilatıdır.

### 1993-2003-CÜ İLLƏR TARİXİMİZDƏ SABİTLİK, İSLAHATLAR VƏ İNKİŞAF İLLƏRİ KİMİ QALACAQ

2003-cü ildən etibarən Azərbaycanda Dahi Öndər Heydər Əliyev siyasəti uğurla davam edir. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Həmin illərdə insanlar ən kiçik sosial ehtiyaclarını ödəyə bilmirdilər. Bu gün hər bir sahədə uğurlar qazanılıb. Bu gün Azərbaycan güclü dövlətdir, dünyada nüfuzlu ölkə kimi tanınır və regionun lideridir. Bu regionda Azərbaycanın razılığı olmadan hər hansı bir layihəni həyata keçirmək mümkün deyil. Bütün bunlar Heydər Əliyevin müdrik siyasətinin nəticəsidir. “Azərbaycan xalqı o vaxt bir daha öz böyüklüyünü, müdrikliyini göstərərək, Heydər Əliyevi hakimiyyətə dəvət etdi və 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir”, - deyən Cənab İlham Əliyev 1993-2003-cü illəri tariximizdə sabitlik, islahatlar və inkişaf illəri kimi qalacağını bildirib: “Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu. O illərdə bizim milli ideologiyamız - azərbaycançılıq ideologiyası təqdim edildi və xalq tərəfindən bəyənildi. O illərdə Azərbaycan beynəlxalq təcriddən çıxa və Dağlıq Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdıra bilmişdir”.

### “...14 İL ƏRZİNDƏ İQTİSADİ İSLAHATLAR BAXIMINDAN AZƏRBAYCAN QƏDƏR SÜRƏTLİ İNKİŞAF YOLU İLƏ GEDƏN İKİNCİ ÖLKƏ OLMAYIB”

Son 14 il ərzində Azərbaycan Ulu Öndər Heydər Əliyevin siyasətinə sadiq qalaraq uğurla və inamla inkişaf edib. Bu gün Azərbaycan güclü ölkəyə çevrilibdir. Prezident İlham Əliyev Azərbaycanın tarixdə ölkəmizin heç vaxt indiki qədər güclü olmadığını bildirib. İstənilən sahədə əldə olunan uğurlar bunu deməyə əsas verir. İstər ölkə daxilində, istərsə də beynəlxalq miqyasda əldə olunan nailiyyətlər və qazanılan nüfuz ölkə gerçəkliklərinə söykənir. Azərbaycan Prezidenti İlham Əliyev bu 14 il ərzində iqtisadi islahatlar baxımından, Azərbaycan qədər sürətli inkişaf yolu ilə gedən ikinci ölkənin olmadığını bildirib: “İqtisadiyyat üç dəfədən çox artıb və yoxsulluq təxminən 50 faizdən 5 faizə düşüb. Xarici borc ümumi daxili məhsulun 20 faizini təşkil edir və ondan da az səviyyədədir. Valyuta ehtiyatlarımız ümumi daxili məhsulun 100 faizini təşkil edir, yəni ona bərabərdir”.

Cənab Prezident Azərbaycanın beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirildiyini bildirib. Belə ki, Davos Forumunun son hesablamalarında iqtisadiyyatların rəqabət qabiliyyətliliyinə görə, Azərbaycan dünya miqyasında 35-ci yerdədir: “Yəni bu rəqəm deməyə əsas verir ki, bizim iqtisadi siyasətimiz mükəmməldir. Bu, ölkəmizin ümumi inkişafında və insanların rifah halının yaxşılaşmasında öz əksini tapır. Energetika, nəqliyyat sahələrində görülmüş işlər haqqında deyə bilərəm ki, son vaxtlar bir çox yeniliklər baş vermişdir. Yəni bir sözlə, Azərbaycan bütün sahələr üzrə, o cümlədən, hərbi-texniki sahədə böyük uğurlara nail ola bilibdir. Bu uğurların təməli 1992-ci ilin noyabrında qoyulub. O vaxt Yeni Azərbaycan Partiyasının yaradılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini qoruya və möhkəmləndirə bilib. Bu gün bütün dünya görür ki, Azərbaycan özünə güvənən, öz daxili resurslarına arxalanan, müasir ənənələrə bağlı olan güclü dünyəvi dövlətə çevrilib”.

Əlbəttə ki, ölkəmiz böyük uğurlara nail olub, Azərbaycan güclü bir dövlətə çevrilib. Nəqliyyat sahəsində, müasir texnologiyaların inkişafında yeni uğurlara imza atıb. Bu yaxınlarda Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanın uğurlarına yeni bir nailiyyət əlavə etdi. Eyni zamanda, “Şimal-Cənub” Nəqliyyat Dəhlizinin yaradılması istiqamətində əlavə addımlar atılacaq. Azərbaycan Prezidenti bu iki layihənin Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzinə çevirəcəyini qeyd edib: “Bu, bizim həm siyasi, həm iqtisadi maraqlarımızın təmin edilməsində çox mühüm rol oynayacaq”.

Ölkə başçısı əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti və rolu olduğunu bildirib: “Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir. Beləliklə, məndə partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var”.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Parisdə Bakının “Expo 2025” Sərgisinə namizəd şəhər olması münasibətilə qəbul təşkil edilib

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib*

***Noyabrın 14-də Parisdə, Royal Pavilyonda Azərbaycanın paytaxtı Bakının Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə namizəd şəhər olması münasibətilə qəbul təşkil edilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib.***






Azərbaycanı “Qafqazın mirvarisi” adlandıran tədbirin aparıcısı ölkəmizin qədim tarixə, zəngin mədəniyyətə malik olduğunu dedi. O, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu tədbirdə iştirak etməsindən şərəf hissi duyduğunu bildirdi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə çıxış etdi.

**Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı**

-Cənab baş katibin müavini.

Cənab Baş Assambleyanın prezidenti.

Zati-aliləri.

Hörmətli Beynəlxalq Sərgilər Bürosunun üzvləri.

Xanımlar və cənablar.

Əziz dostlar. İlk növbədə hamınızı salamlamaq, dəvətimizi qəbul etdiyiniz və bu axşam bizimlə bir yerdə olduğunuz üçün sizə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan hökuməti adından Bakının 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə ev sahibliyi etmək üçün namizədliyini təqdim etmək mənim üçün böyük şərəfdir.

Bu axşam aramızda olduğu üçün Beynəlxalq Sərgilər Bürosunun baş katibinin müavini Dimitri Kerkentzesə təşəkkürümü bildirmək istəyirəm. Bu fürsətdən istifadə edib Beynəlxalq Sərgilər Bürosunun rəhbərliyinə və onların fədakar komandasına Azərbaycan hökuməti ilə yüksək səviyyəli əməkdaşlığa görə dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan 2000-ci ildən etibarən “Expo” hərəkatının fəal üzvüdür. Bizim pavilyonlarımız son üç sərgidə - 2015-ci ildə pavilyonumuzu üç milyondan çox insanın ziyarət etdiyi Milanda, 2016-cı ildə Antalyada və 2017-ci ildə Astanada mükafatlar qazanıb. Beynəlxalq Sərgilər Bürosunun işinə sadə töhfəmizin bu cür qiymətləndirilməsindən qürur duyuruq.

Ümumdünya sərgisi bütün mədəniyyətlərə bərabərlik və hörmət prinsipinə əsaslanan müxtəlifliyi sərgiləmək üçün bir platformadır. Bu sərgilər qlobal müzakirələr və əməkdaşlıq üçün bütün beynəlxalq ictimaiyyəti nadir bir məkanda bir araya gətirir. Buna görə də əminəm ki, Azərbaycan bu universal platformaya ev sahibliyi etmək üçün ən yaxşı məkanlardan biridir. Əsrlər boyu ölkəmiz qitələrin və sivilizasiyaların kəsişməsində yerləşib. Avropa və Asiyanın qovuşuğunda yerləşən Azərbaycan Şərq ilə Qərb, Şimal ilə Cənub arasında ticari, siyasi və mədəni körpü rolunu oynayır.

İki min il ərzində qədim İpək Yolu bugünkü Azərbaycandan keçib. Ümumdünya Sərgisi kimi bu yol bilik və bacarıqların paylaşılması üçün əhəmiyyətli bir dəhliz olub. Bu, ölkəmizin tarixini, mədəniyyətini və tolerant imicini formalaşdırıb.

Əsrlər boyu Azərbaycanda müxtəlif etnik qruplar və dinlər sülh, harmoniya və qarşılıqlı hörmət şəraitində birgə yaşayıblar. Etnik və dini müxtəliflik və multikulturalizm sadəcə dövlət siyasətimiz deyil, eyni zamanda, bizim həyat tərzimizdir. Bu, bizim tariximizdir və günümüzün reallığıdır. Biz dünyəvi, multikultural və çoxkonfessiyalı cəmiyyətik və bundan qürur duyuruq. Bu gün Azərbaycan dünyada mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzlərindən biri hesab olunur. Biz hazırda dünyanın üzləşdiyi bir çox ciddi problemlərin daha səmərəli həll olunmasına imkan verəcək müxtəlif mədəniyyətlərə və dinlərə mənsub olan insanlar arasında daha yaxşı anlaşmanı təşviq etmək üçün beynəlxalq platforma yaradırıq. Tariximiz və bugünkü reallıq bunun mümkünlüyünü sübut edir. Mən Azərbaycanın təşəbbüsü ilə başlanan və BMT, YUNESKO, Avropa Şurası, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı və İSESKO kimi beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən Dünya Mədəniyyətlərarası Dialoq Forumunu misal göstərə bilərəm. Bu siyasətə uyğun olaraq, biz 2016-cı ili Azərbaycanda “Multikulturalizm İli”, 2017-ci ili isə “İslam Həmrəyliyi İli” elan etdik. 2015-ci ildə keçirilən birinci Avropa Oyunları və bu ilin əvvəlində təşkil olunan dördüncü İslam Həmrəyliyi Oyunları Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi digər töhfədir.

Xanımlar və cənablar, gələn il biz müsəlman dünyasında ilk parlamentar və dünyəvi respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyini qeyd edəcəyik. Cəmi 23 ay mövcud olmasına baxmayaraq, bu respublika irqindən, etnik mənsubiyyətindən, dinindən, cinsindən və sosial statusundan asılı olmayaraq bütün vətəndaşlarının hüquqlarının bərabərliyinə hörmət prinsipinə əsaslanan müasir Azərbaycan dövlətçiliyinin demokratik ənənəsinin təməlini qoymuşdur.

***Ardı Səh. 5***

# Parisdə Bakının "Expo 2025" Sərgisinə namizəd şəhər olması münasibətilə qəbul təşkil edilib

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib*

**Əvvəli-Səh-4**



Hələ 1918-ci ildə Azərbaycan dünyada kişilərlə bərabər qadınlara siyasi hüquqlar verən, o cümlədən səsvermə hüququ verən ilk ölkələrdən biri olmuşdur.

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra biz dərhal müstəqil dövlət kimi mövcudluğumuza real təhlükə yaradan böyük siyasi, iqtisadi və humanitar çağırışlarla üzləşdik. Bunlardan ən ciddisi qonşu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü idi və bunun nəticəsində ölkəmizin ərazisinin 20 faizi, o cümlədən Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayon işğal olunmuşdur və işğal hələ də davam edir. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycanın ərazisindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu qətnamələr yerinə yetirilməlidir və Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Münaqişəyə, yeni siyasi sistemə və bazar iqtisadiyyatına keçidin yaratdığı əlavə çağırışlara baxmayaraq, Azərbaycan uğurlu inkişaf strategiyasını tətbiq edərək, zəruri siyasi və iqtisadi islahatları həyata keçirə bilmişdir. Bu, bizə müstəqilliyimizi möhkəmləndirməyə, vətəndaşlarımızın həyat səviyyəsini yaxşılaşdırmağa və Azərbaycanın beynəlxalq aləmdə layiqli yerini təmin etməyə imkan vermişdir. Siyasi, iqtisadi və sosial sabitlik uğurlu inkişafımızın möhkəm təməlini təşkil edir.



Nəticədə, 2004-cü ildən 2014-cü ilədək ümumi daxili məhsulumuzun həcmi üç dəfə artdı və Azərbaycan dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatlarından birinə çevrildi. Bu müddətdə 1 milyon 600 mindən çox iş yeri yaradıldı. İşsizliyin səviyyəsi 5 faizdir - bu, dünyada ən aşağı göstəricilərdən biridir. Həmin dövr ərzində biz yoxsulluğun səviyyəsini 40 faizdən 5 faizədək azaltmağa nail olduq. Ölkə üzrə 3 mindən çox məktəb, 600-dən çox xəstəxana və 50-dən artıq idman kompleksi inşa edildi. 2009-cu ildə Azərbaycan Dünya Bankı tərəfindən "Dünyanın aparıcı islahatçı ölkəsi" kimi qiymətləndirildi. Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik İndeksi" Azərbaycanı 137 ölkə arasında 35-ci yerə layiq gördü.

Azərbaycan öz nadir geostrateji mövqeyindən faydalanaraq Avropa ilə Asiya arasında qarşılıqlı əlaqəni yaradan əsas tərəfə çevrildi və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkələrdən biri oldu. Azərbaycan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, 2017-ci il oktyabrın 30-da açılışı qeyd edilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti kimi bir sıra nəhəng beynəlxalq infrastruktur layihələrinin təşəbbüskarı olub və onları həyata keçirib. Uzunluğu 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti Avropa ilə Asiyanı birləşdirən ən qısa yoldur.

Bu gün biz, həmçinin beynəlxalq bazarlar üçün yeni təbii qaz mənbəyi olan və Avropanın enerji təhlükəsizliyini gücləndirən, dəyəri 40 milyard ABŞ dolları olan Cənub Qaz Dəhlizinin reallaşmasında aparıcı rol oynayırıq. Bu nümunələrin hər zaman ən böyük dəyəri - müxtəlif qitələr, ölkələr, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqu, bacarıq və biliklərin mübadiləsini təşviq edən qədim İpək Yolunun bərpasına Azərbaycanın verdiyi əməli töhfəni sübuta yetirir.

Hörmətli qonaqlar, Azərbaycan yüksələn xətlə inkişaf edən dövlətdir və indi ölkəmizin iddiası 2025-ci ildə Ümumdünya Sərgisinə ev sahibliyi etmək və bütün dünyanı qəbul etmək hüququnu qazanmaqdır. Bizim "İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması" mövzusu həqiqətən hamını narahat edən bir məsələdir. Bu mövzu dövrümüzün əsas çağırışını - texnologiyanın və artan bağlılığın bəşəriyyətə təsirini əhatə edir. "Bakı Expo 2025" sərgisində düşünürük ki, texnologiyadan daha uzağa baxmaq, diqqətimizi rəhbərlərdən sıravi vətəndaşlara yönəldərək iqtisadiyyatların, cəmiyyətlərin və yaradıcılığın aparıcı qüvvəsi olan insanlar üzərində cəmləşdirmək mühüm əhəmiyyət kəsb edəcək.

Biz insanları - dünyada ən güclü resurs olan insan kapitalını universal müzakirəyə çıxaracağıq.

Bakıda keçiriləcək Ümumdünya Sərgisi Beynəlxalq Sərgilər Bürosuna yeni bazarda yeni auditoriya ilə təmasa girmək imkanı verəcək. Bu sərgi yeni bölgədə, yeni dövrdə yeni bir tarix yazmaq imkanı yaradacaq. Bu sərgi, həmçinin Azərbaycan xalqına bizim Beynəlxalq Sərgilər Bürosunun mümkün olan ən yaxşı tərəfdaşlarından biri ola biləcəyini nümayiş etdirmək fürsətini verəcək.

Təklifimiz uğurlu olarsa, Bakı bütün Şərqi Avropa, Qafqaz və Xəzər hövzəsi regionunda Ümumdünya Sərgisinə ev sahibliyi edəcək ilk şəhər olacaq. Biz sərgi məkanının yaradılmasına və istismarına bütün lazımi vəsaiti ayırmağa, həmçinin inkişaf etməkdə olan ölkələrin sərgidə iştirakını dəstəkləməyə hazırıq.

**Ardı Səh. 6**



# Parisdə Bakının "Expo 2025" Sərgisinə namizəd şəhər olması münasibətilə qəbul təşkil edilib

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib*



**Əvvəli-Səh-5**

Sonda, əziz dostlar, mən Ümumdünya Sərgisinə ev sahibliyi etmək üçün bizim təklifimizi dəstəkləmək məqsədilə əsas məqamları bir daha diqqətinizə çatdırmaq istəyirəm:

1. Bizim müxtəlif dinlərə və etnik mənşəyə mənsub olan insanlar arasında multikulturalizm və qarşılıqlı hörmət ənənələri ilə zəngin olan qədim tariximiz var.

2. Avropa ilə Asiyanın kəsişməsində yerləşən, asanlıqla çıxış əldə oluna bilən coğrafi mövqeyimiz Ümumdünya Sərgisinin keçirilməsi üçün yeni bir məkandır.

3. Biz siyasi və iqtisadi sabitliyə, maliyyə imkanlarına, yüksək səviyyəli təhlükəsizliyə malik gənc müstəqil ölkəyik.

4. Sürətlə inkişaf edən infrastruktura malik Bakı şəhəri özündə tarixin və müasirliyin nadir qarışığını təcəssüm etdirir.

5. Azərbaycan turist axınının sürətlə artdığı və 90-dan artıq ölkənin vətəndaşlarına asan girişi və onlara elektron vizaların verilməsini təmin edən ölkədir.

6. Zəngin mətbəximiz, xoş iqlimimiz və ənənəvi qonaqpərvərliyimiz əlbəttə ki, bizim üstünlüyümüzdür.

Bakı sərgisi 26 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlərin tanıdılması üçün daha bir imkan olacaqdır.

Bu, həmçinin bütün gənc, müstəqil ölkələr üçün çox güclü bir stimul olacaqdır. 2025-ci ildə Ümumdünya Sərgisini təşkil etmək bizim səmimi istəyimizdir. Əgər bu şərəfə layiq görüləriksə, biz bütün dünyanı Azərbaycanda və gözəl şəhərimiz olan Bakıda qürurla qarşılayacağıq. Mən hamınıza gözəl axşam arzu edirəm və diqqətinizə görə sağ olun.

X X X

Sonra Azərbaycan haqqında videoçarx nümayiş olundu. Qədim tarixə, zəngin mədəniyyətə və adət-ənənələrə malik Azərbaycan bu gün sürətlə inkişaf edən ölkə kimi bütün dünyanın diqqət mərkəzindədir. Azərbaycanın paytaxtı Bakının "Expo 2025" Ümumdünya Sərgisinə namizəd şəhər olması da təsadüfi deyil.

Bu gün Azərbaycan dünyada həm də müxtəlif sahələrə aid mötəbər beynəlxalq tədbirlərin, idman yarışlarının yüksək səviyyədə keçirildiyi ölkə kimi tanınır. Bununla yanaşı, ölkəmizin indiyədək iştirak etdiyi bütün beynəlxalq sərgilərdəki pavilyonları və stendləri həm təşkilatçılar, həm də iştirakçılar tərəfindən yüksək qiymətləndirilib. Bu tədbirlərdə Azərbaycan layiqincə təmsil olunub, ölkəmizin tarixi, mədəniyyəti, incəsənəti, adət-ənənələri geniş təbliğ edilib, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Bakının "Expo 2025" Ümumdünya Sərgisinə namizəd şəhər olması şərəfinə keçirilən qəbulda Azərbaycan və dünya bəstəkarlarının əsərləri, həmçinin xalq mahnıları səsləndirildi.

Qeyd edək ki, Azərbaycan milli pavilyonla ilk dəfə "Milan Expo 2015" Ümumdünya Sərgisində iştirak edib. Ölkəmizin "Milan Expo 2015"dəki pavilyonunu sərgi günlərində 3 milyondan çox insan ziyarət edib. Türkiyədə təşkil olunan "Antalya Expo 2016" Beynəlxalq Botanika Sərgisində də Azərbaycan milli pavilyonu iştirakçılarda böyük maraq doğurub. Astanada keçirilən "Expo 2017" Beynəlxalq Sərgisində isə ölkəmiz "Enerji Yurdu - keçmişdən gələcəyə daşınan enerji" konsepsiyası əsasında hazırlanan pavilyonla təmsil olunub.

Azərbaycan "Expo 2025 Bakı" Sərgisini mayın 10-dan noyabrın 10-dək təşkil etmək təklifini irəli sürüb. Sərginin mövzusu isə "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" olacaq.

Bakı ilə yanaşı, Rusiyanın Yekaterinburq, Yaponiyanın Osaka və Fransanın Paris şəhərlərinin də "Expo 2025" Ümumdünya Sərgisinin keçirilməsi üçün namizədliyi irəli sürülüb. Bakının "Expo 2025" Ümumdünya Sərgisinə namizəd şəhər olması şərəfinə təşkil edilən qəbulda Azərbaycanın və Fransanın tanınmış ictimai-siyasi xadimləri, diplomatik korpusun nümayəndələri və digər nüfuzlu şəxslər iştirak etdilər.

Tədbir zamanı qurulmuş xüsusi monitorlarda Azərbaycan haqqında nümayiş olunan videoçarxlar, ölkəmiz barədə nəşrlər böyük maraqla qarşılandı. Sonda tədbir iştirakçılarına Azərbaycanla bağlı suvenirlər, paytaxtımızın "Expo 2025"ə namizədliyinə həsr olunmuş kataloqlar və digər xatirə hədiyyələri təqdim edildi.

**_Şəhla Ağalarova_**
**_AZƏRTAC-ın xüsusi müxbiri_**
**_Paris_**

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Noyabrın 15-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycan Respublikası Prezidentinin 18 oktyabr 2017-ci il tarixli sərəncamları ilə ölkəmizin ictimai-siyasi həyatında fəal və səmərəli fəaliyyətlərinə görə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmiş Mərkəzi Seçki Komissiyasının üzvləri Şaitdin Sərdar oğlu Əliyev və Nizami Hüseyn oğlu Nadirova dövlət mükafatlarının təqdim edilmə mərasimi keçirilib. Tədbirdə sədr Məzahir Pənahov çıxış edərək dövlətimizin başçısı tərəfindən verilən bu yüksək qiymətin Mərkəzi Seçki Komissiyasında böyük minnətdarlıqla qarşılandığını bildirib və ölkə rəhbəri adından ordenləri sahiblərinə təqdim edib.



Sonra Komissiyanın 2017-ci il iyulun 28-də keçirilmiş iclasının protokolu təsdiq edilib. İclasda Azərbaycanda seçkilərin tarixi toplusunun nəşri ilə bağlı məsələyə baxılıb və Komissiya üzvlərinin müzakirəsindən sonra məsələ səsverməyə çıxarılaraq qəbul olunub.

Həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib. Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda cari məsələlərə də baxılıb.

# "Dağlıq Qarabağ münaqişəsinin həlli prosesini ölü nöqtədən tərpətmək lazımdır"

"Dağlıq Qarabağ münaqişəsinin həlli prosesini ölü nöqtədən tərpətmək lazımdır." Trend-in məlumatına görə, bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda braziliyalı həmkarı Aloyzio Nunyes Ferreyra ilə birgə mətbuat konfransında deyib. Onun sözlərinə görə, bu məsələ Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri zamanı və onun Moskvada ATƏT Minsk qrupunun həmsədrləri ilə görüşü zamanı müzakirə olunacaq:




"Sergey Lavrovun Bakıya səfəri zamanı müzakirə olunacaq məsələlər danışıqlar masasındadır. Azərbaycanın mövqeyi dəfələrlə səsləndirilib. Biz istəyirik ki, danışıqlar sadəcə danışıqlar xatirinə aparılmasın". E.Məmmədyarov qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsini həll etməyin vaxtı çatıb: "Münaqişənin nizamlanması üzrə danışıqlar nəticə etibarilə səmərəli olmalıdır. Məcburi köçkünlər öz doğma torpaqlarına qayıtmalı və regionda sülh təmin olunmalıdır". Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin mümkün üçtərəfli görüşünə gəlincə, nazir bununla bağlı bu gün bəyanat verəcəyini bildirib.

# Yeni Azərbaycan Partiyasının əsas ideyası olan sosial dövlət prinsipi sosial ədalətin bərqərar edilməsini vacib şərtə çevirmişdir



**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümovun yap.org. az-a müsahibəsi**

### Yeni Azərbaycan Partiyasının fəaliyyətində sosial dövlət prinsipi mühüm yer tutur

**- Səlim müəllim, noyabrın 21-i Yeni Azərbaycan Partiyasının yaranmasının 25 ili tamam olur. Partiyanın ötən müddət ərzində keçdiyi inkişaf yolu barədə nə deyə bilərsiniz?**

- Bu gün Azərbaycan müasir, demokratik, hüquqi və sosial dövlət kimi tanınır. Azərbaycanın sosial dövlət olmasını göstərən amillərdən biri həyata keçirilən siyasətin mərkəzində insan amilinin olmasıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Məhz bu prinsipin əyani təzahürü kimi, əhalinin sosial rifah halının yaxşılaşdırılması, etibarlı sosial müdafiə sisteminin formalaşdırılması istiqamətində mütəmadi olaraq səmərəli tədbirlər həyata keçirilir.

Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının fəaliyyətində də sosial dövlət anlayışı mühüm yer tutur. Bu, hər şeydən əvvəl, Azərbaycanın sosial dövlət fəlsəfəsindən irəli gəlir. Yeni Azərbaycan Partiyasının fəaliyyət mexanizminin əsaslarını təşkil edən mühüm prinsiplərdən biri güclü dövlət anlayışıdır. Bu güclü dövlət anlayışı isə həm dövlətin iqtisadi qüdrətinin artırılmasını, həm də vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasını özündə ehtiva edir.

Təsadüfi deyil ki, Yeni Azərbaycan Partiyasının ideoloji prinsiplərində sosial ədalət məsələsi də öz əksini tapıb. Cəmiyyətdə müxtəlif təbəqələrin nümayəndələrinə bərabər imkanların yaradılması, sosial dövlət vasitəsilə sosial rifahın təmin olunması kimi başlıca məsələlər Yeni Azərbaycan Partiyasının ideoloji siyasətində sosial ədalət prinsipi ilə ifadə olunub. Buradan çıxış edərək əminliklə söyləyə bilərik ki, Yeni Azərbaycan Partiyasının fəaliyyətində sosial dövlət prinsipi mühüm yer tutur.

Cənubi Qafqazın ən güclü siyasi təşkilatı olan, yarandığı vaxtdan Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə və milli inkişaf konsepsiyasına sədaqət ruhunda fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası sivil siyasi sistem əsasında müstəqil dövlətimizin qurulması və möhkəmlənməsinə, ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunmasına yönələn misilsiz xidmətlərlə zəngin, şərəfli yol keçib.

1992-ci il noyabrın 21-də Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin sədrliyi və tanınmış ziyalıların iştirakı ilə Naxçıvan şəhərində YAP-ın təsis konfransının keçirilməsi o zaman yeni müstəqillik qazanmış ölkəmizin bu müstəqilliyi itirmək təhlükəsindən xilas olmasına, ölkəmizin müqəddəratının tənəzzüldən tərəqqiyə doğru dəyişməsinə aparan yolun başlanğıcı oldu. Həmin konfransda Ulu Öndərimiz Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. 1993-cü ilin iyun ayında - Azərbaycanın taleyinin sual altında qaldığı, bütün sahələri bürümüş ağır böhran şəraitində gələcəyə ümidlərin tükəndiyi bir vaxtda isə xalqın iradəsi ilə Ulu Öndər Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıdışı müasir tariximizin ən şərəfli səhifəsidir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müdrik və uzaqgörən, qətiyyətli siyasəti, zəngin dövlətçilik təcrübəsi dövlət müstəqilliyimizin itirilməsi təhlükəsinin, vətəndaş qarşıdurmasının aradan qalxmasına, sivil əsaslar üzərində müstəqil dövlətin qurulması və möhkəmlənməsinə, sosial-iqtisadi inkişafın təmin edilməsinə və digər mühüm nailiyyətlərin əldə olunmasına imkan verib. Bu proseslərdə Ulu öndərimizin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası həmişə ön cərgədə olması, daim xalqın maraq və mənafelərinin təminatı məramına əsaslanması ilə ümumxalq partiyası olduğunu təsdiq edib.

Ulu öndər Heydər Əliyev tərəfindən, eyni zamanda, yeni iqtisadi münasibətlər şəraitində sosial inkişaf kursunun etibarlı təməli formalaşdırılıb. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri nəticəsində təkcə 1995-2003-cü illər ərzində pensiya və müavinətlərin 8 dəfə, muzdla işləyənlərin əmək haqqının 6 dəfədən çox artmasına nail olunub. Əmək və sosial müdafiə sahəsində beynəlxalq normalara uyğun milli qanunvericiliyin yaradılması, bu sahənin müasirləşdirilməsi yönündə mühüm addımlar atılıb.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərlik etdiyi, hazırda 700 mindən çox insanı sıralarında birləşdirən Yeni Azərbaycan Partiyası bu gün də müstəqilliyimizin, demokratik, hüquqi, dünyəvi dövlətimizin möhkəmləndirilməsi, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması proseslərində daim yaxından iştirak edir və bu, partiyaya ümumxalq inam və etimadının daim artması ilə müşahidə olunur. Dövlətimizin başçısının qeyd etdiyi kimi, "Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilmişdir. Yarandıqdan bu günə qədər partiyamız çox böyük, şərəfli və uğurlu yol keçmişdir.

**- Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu sosial siyasət kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsində bu sahədə əldə edilən nəticələri necə dəyərləndirmək olar?**

- 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Əhalinin sosial rifahının yüksəldilməsi əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu dövlət siyasətinin əsas strateji hədəfləridir. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasında olmuşdur. Davos Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan Respublikası daha iki pillə irəliləyərək iqtisadiyyatın rəqabətə davamlılığına görə dünya ölkələri sırasında 35-ci yerdə qərarlaşıb. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində vurğuladığı kimi, bu il iqtisadi islahatlarla bağlı çox ciddi addımlar atılmışdır. Strateji yol xəritələrinin icrası təmin edilir. Dövlətimizin başçısı son 9 ayda respublikamızın sosial-iqtisadi inkişaf sahəsində qazandığı uğurların səbəblərinə diqqət çəkərək bildirib: "Qeyri-neft sektorunun inkişafı bizim əsas prioritetimizdir və 2,5 faiz artan qeyri-neft iqtisadiyyatımız həm uğurlu islahatlarımızın göstəricisidir, həm də onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi məsələləri öz həllini uğurla tapıbdır".

Bu gün Cənubi Qafqazda iqtisadi qüdrətinə görə öndə olan Azərbaycan ötən dövrdə milli iqtisadiyyatını 3,4 dəfə, o cümlədən uğurlu iqtisadi şaxələndirmə nəticəsində qeyri-neft sektorunu 2,6 dəfə artırıb. Mühüm sosial uğurlar olaraq, ölkədə 1,6 milyondan çox yeni iş yerinin yaradılması, əhalinin gəlirlərinin 5,2 dəfə, minimum əmək haqqının 3,5 dəfə, orta aylıq əmək haqqının 4 dəfəyə yaxın, pensiyaların 10,3 dəfədən və sosial müavinətlərin 3 dəfədən çox artırılması, ölkə əhalisinin 26 faizə qədərinin sosial təminat sistemi ilə əhatə olunması, işsizlik və yoxsulluğun 5 faiz səviyyəsinə endirilməsi təmin edilib. Prezident cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, sosial müdafiə sistemində əhatəliliyin artırılması, səmərəliliyin yüksəldilməsi, şəffaflığın tam təmin olunması yönündə məqsədyönlü islahatlar aparılıb. Milli əmək və sosial müdafiə sisteminin dünyada nümunəvi təcrübələr kimi qəbul olunan avtomatlaşdırılmış müasir infrastrukturu yaradılıb. Bütövlükdə, dayanıqlı iqtisadi inkişaf təmin edilib, etibarlı sosial müdafiə sistemi formalaşdırılıb.

**- Ölkəmizdə işsizlik və yoxsulluğun artmasının qarşısının alınmasında, həmçinin əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində görülən işlərin və əldə edilən nəticələrin əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

- Azərbaycan Prezidenti cənab İlham Əliyevin qlobal iqtisadi və siyasi çağırışlara adekvat olaraq həyata keçirdiyi uğurlu islahatlar kursu, dünya iqtisadiyyatında böhranın dərinləşdiyi cari ilin ötən dövründə ölkəmizin sosial-iqtisadi inkişafının davam etməsinə şərait yaratmaqla, əmək bazarında sabitliyin qorunub saxlanmasına, işsizlik və yoxsulluğun artmasının qarşısının alınmasına imkan verib. Prezident cənab İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qeyd edib ki, doqquz ayda həm Bakıda, həm bölgələrdə yeni iş yerlərinin yaradılması prosesi uğurla gedib: "Həmin dövrdə 226 min yeni iş yeri yaradılıbdır ki, onlardan 171 mini daimi iş yeridir. Bu da işsizliyin aşağı səviyyədə saxlanmasına imkan verir. Bu, daimi proses olmalıdır. Çünki bizim əhalimiz artır və belə olan halda biz daim yeni iş yerlərinin yaradılması haqqında düşünməliyik".

Dövlət başçısının ilk növbədə milli sahibkarlığın dövlət tərəfindən dəstəklənməsi əsasında iqtisadi şaxələndirməni və qeyri-neft sektorunun sürətli inkişafını, bu sektor üzrə rəqabət qabiliyyətli və ixrac yönümlü məhsul istehsalının artımını nəzərdə tutan islahatlar paketi əmək ehtiyatlarından istifadənin genişləndirilməsini də stimullaşdırıb.

Dövlət başçısının sosial məsuliyyətin bölüşdürülməsi təşəbbüsünün müsbət nəticəsi kimi, dövlət təşkilatlarında yaradılan iş yerləri barəsində məşğulluq orqanlarına vakansiyalar təqdim edilib. Həmin vakant iş yerlərinə göndərişlərin verilməsində şəffaflıq tam təmin olunub. İlk növbədə işsiz və işaxtaran kimi uzun müddət qeydiyyatda olan, iş tapmaqda çətinik çəkən şəxslərin məşğulluğu diqqətdə saxlanılmaqla, bu və ya digər ixtisarlar nəticəsində sərbəstləşmiş işçi qüvvəsinin dərhal vakant iş yerlərində yerləşdirilməsi prosesi həyata keçirilib. Ölkəmizdə işçi qüvvəsinin, xüsusən də sərbəstləşmiş işçi qüvvəsinin dərhal vakant iş yerlərində işlə təminatı əmək haqları formasında ailə gəlirlərinin azalmasının qarşısının alınmasına imkan verib. Bu və digər tərəfdən, əmək haqları da daxil olmaqla bütün sosial ödənişlərin, o cümlədən sosial cəhətdən həssas qrupların maddi təminatlarının artırılması tədbirləri ümumən əhalinin alıcılıq qabiliyyətinin sabit saxlanmasına şərait yaradıb. Aparılan sosial-iqtisadi siyasət ötən dövrdə yoxsulluğun kəskin şəkildə azaldılması sahəsində əldə olunmuş nailiyyətin də qorunub saxlanmasına imkan verib.

Bütövlükdə, son on ildə iqtisadiyyatın sürətli inkişafı və ümumi daxili məhsulun təqribən üç dəfəyə qədər artması iqtisadi imkanların genişlənməsinə səbəb olub. Nəticədə, məşğulluq sürətlə artıb və işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə aşağı düşüb. Ölkəmizdə qeydə alınmış işsizlik səviyyəsinin 5 faizlik həddə saxlanılması çox böyük uğurdur.

Bundan başqa, məşğulluğun təmin olunmasında insanların özlərinə yaratdığı məşğulluq formaları da mühüm rol oynayır. Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da həmin formada həyata keçirilən məşğulluq, təəssüflər olsun ki, əksər hallarda qeydiyyatdankənar fəaliyyət göstərir. Aparılan təhlillərin nəticələri göstərir ki, qeydiyyatdankənar çalışanların böyük əksəriyyəti məhz bu formada məşğul olanlardır. Onların qeydiyyata alınması isə böyük problemdir. Həmin problemin həlli üçün beynəlxalq səviyyədə həyata keçirilən tədbirlər, yəni beynəlxalq təcrübə öyrənilir. Hazırda qeyri-formal məşğulluğun səviyyəsinin aşağı endirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Çünki bu, ilk növbədə həmin formada çalışanların gələcək sosial təminat hüquqlarının sual altına düşməsinə səbəb olur. Bunu nəzərə alaraq pensiya təminatı sistemini dəyişdik, artıq tam sığorta prinsiplərinə əsaslanan pensiya təminatı sistemi fəaliyyət göstərir. Hər kəs qeydiyyata düşüb sosial sığorta haqqı ödəyirsə, bu, tam şəkildə onun fərdi hesabına köçürülür. Gələcək pensiya təminatı da məhz bundan asılıdır. Hazırda bu sahədə işlər davam etdirilir.

**- Yeri gəlmişkən, layiqli əməyin təmin olunmasında Azərbaycan təcrübəsinin önəmi və bu istiqamətdə həyata keçirilən tədbirlər barədə nə demək olar?**

- Azərbaycan milli səviyyədə layiqli əməyi ümumi inkişaf kontekstində makroiqtisadi və əmək bazarı siyasətlərinin qarşılıqlı əlaqəsi əsasında əhalinin məşğulluq imkanlarının artırılması kimi görür. Başqa sözlə, layiqli əməyin təmin edilməsini məhsuldar əməyə nail olunması, sabit və keyfiyyətli iş yerlərinin yaradılması, peşə təhsili sisteminin təkmilləşdirilməsi, işçi qüvvəsinin keyfiyyətinin artırılması, işsizlikdən sığorta və tibbi sığorta sistemlərinin tətbiqi, əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması, sosial dialoqun gücləndirilməsi tədbirləri vasitəsi ilə reallaşdırırıq. Bununla yanaşı, qeyri-formal məşğulluğun aradan qaldırılması, əmək bazarında kvalifikasiyaların iqtisadiyyatın artan tələbatına uyğunlaşdırılması, gender bərabərliyinin təmin olunması, əhalinin özünüməşğulluğunun inkişafı və s. məsələlərə xüsusi diqqət yetiririk.

Bu siyasət ilk növbədə sosial müdafiə tədbirlərində əhatəliliyin və ünvanlılığın təmin edilməsinə, əmək və sosial təminat sahəsində sürətli, rahat və şəffaf dövlət xidmətlərinə geniş çıxış imkanlarının yaradılmasına, sosial xidmətlərin təqdim edilməsində innovativ texnologiyaların tətbiqinə və bu əsasda aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə əsaslanır. Bütün bu məqsədlər gələcək illərdə Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin artırılmasını və yüksək insan kapitalının inkişafını təmin edəcək "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" və sosialyönümlü dövlət proqramları çərçivəsində reallaşdırılır.

# Tarixin həqiqi qapıları açılır və ya Azərbaycan dilçiliyində tarixi hadisə

***Hər hansı bir xalqın tarixini, ona aid həqiqətləri öyrənmək üçün, ilk növbədə, müəyyən ərazidə yaşayan xalqların da tarixini araşdırmaq olduqca vacibdir və ümumən xalqın tarixi keçmişini bilmədən digər aktual məsələləri də tədqiq etmək çətin olar. Bu baxımdan, "hibrit xalq" (N.Y.Marr) olan ermənilərin yalan tarixi əsl elm olmayıb, demək olar ki, "ustanovka" ilə yazılmış və nəticədə bu hal həmin xalqın tarixinin şüurlu surətdə saxtalaşmasını şərtləndirmişdir.***



**İsmayıl KAZIMOV**
**AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu Müasir Azərbaycan şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor**

"Bizim xalq altruistdir, yəni eqoist deyil, o öz qədimliyindən, qədim mədəniyyətindən istifadə etmək, *onu öyrənmək, dünya arenasına çıxarmaq, öyünmək əvəzinə, qədim mədəniyyət nümunələrini üzə çıxarmağa ehtiyat edir" (professor Qəzənfər Kazımov).

Azərbaycan tarixçilərinin bu tarixi biganəliyini çox həssaslıqla səciyyələndirən ermənipərst rus tarixçisi Qalina Staroytova Azərbaycan xalqının qədim və zəngin tarixi faktlarını nəzərdə tutaraq yazırdı ki, "...əfsuslar olsun, yazıq bir millətə ki, bu cür sübutlarla öz tarixini müdafiə edə bilmir. Mən həmişə bu tənbəlliyə məəttəl qalmışam".

Filologiya elmləri doktoru, professor, tanınmış cavidşünas, tarixçi-alim Əjdər Tağıoğlu İsmayılovun yenicə çapdan çıxmış "Mesrop Maştos əlifba ixtiraçısı deyil, fırıldaqçı anonim keşişdir" və 2016-cı ildə buraxılmış "Moisey Xorenatsi anonim keşiş müəllifdir" əsərlərinin tarixi qiyməti "iki yüz ildən bəri dilimizi, dinimizi və keçmişimizi qara sandığa atıb, ağzına kilid vurmuş rus imperiyasının işğalçı ideoloji savaş maşınının durdurması"ndadır, onlara və erməni həyasızlığına verilən maddi-tarixi sübutlarla əsaslandırılmış güclü cavabdadır.

Bu baxımdan, tədqiqatçının apardığı geniş araşdırmada əsaslı maddi sübutlarla gəldiyi nəticə - "Avesta yazısı"nı yunandilli anonim keşiş Mesrop Maştosun adına yazmaqla, erməni tarixçilərinin və dilçi alimlərinin başqa xalqa aid olan qədim yazını ötən yüzilliklərdən bəri "erməni yazısı" kimi dünya elmi ictimaiyyətinə sırıdıqları zəhərli doqmanı darmadağın edir. O yazır: "Bir xalqın ki, tarixşünaslığının bünövrəsində "erməni tarixinin atası" hesab etdikləri Moisey Xorenatsi kimi anonim keşiş tarixçi dayana, "yazı mədəniyyəti"nin "başında", hətta guya başqa xalqlara da "əlifba" tərtib edən, onlara da "yazı mədəniyyəti" və "xristianlıq maarifi" "gətirən" Mestop Maştos adında "erməni dilli" yox, yunandilli fırıldaqçı cahil bir keşiş dayana, o xalqın qədim mənəviyyat, mədəniyyət və dövlətçilik tarixindən danışmaq elmi cəhalətdir, nadanlıqdır, cahillikdir!!!"

Bu fikri tamamlayan müəllifin kitabın "Ön söz"ündə akademik N.Y.Marrdan verdiyi epiqraf-sitat sübut edir ki, "Mesrop Maştos əlifba ixtiraçısı deyil, fırıldaqçı keşiş müəllifdir" əsəri bu gün Azərbaycan dilçiliyində tarixi hadisədir, müstəsna qiyməti elmi dəyərə malikdir. N.Y.Marr yazır: "Erməni xalqı kimi erməni dili də hibrit (çalaq) dildir". Əjdər Tağıoğlu "hibrit xalq" hesab edilən ermənilərin ümumtürk tarixindən calaq olan saxta "tarixləri" və "mədəniyyətləri" ilə bağlı dərin savada malik, intellektual səviyyəli, zəngin məlumatlı bir alimdir. O, problemlə bağlı apardığı araşdırmalarda rus imperiyasının işğalçı siyasətindən doğan "Türksüz Qafqaz" ideoloji savaş modelini "Azərbaycan tarixi" ədəbiyyatında "Qafqaz Albaniyası" adı altında saxta elmə çevirərək, erməniləri "Qafqazın yerli əhalisi" etməyə şüurlu elmi həyatını həsr etmiş "bizim" bəzi məlum tarixçilərin məkrli siyasi mənliyini aşkara çıxarır və onların iç üzünü ifşa edir.

Ə.Tağıoğlu fikrinin davamında çörəyini yediyi xalqdan uzaq düşmüş üzüdönük alimlər barədə yazır: "Belələri Azərbaycan türklərinin qədim tarixini Ön Qafqazın siyasi xəritəsindən silmək üçün "Ön Qafqaz Oğuz Albaniyası"nı süni şəkildə "Qafqaz Albaniyası" modelinə çevirərək, atəşpərəst əhalini "xristian" inanclı əhali, "Atəşgah" məbədlərini kilisə, ölkəni "xristian dövləti" kimi qələmə verməklə gəlmə ermənilərə " Qafqazın qədim yerli əhalisi" tarixi yazmaq siyasəti yeridən işğalçı rusların ideoloji silahına çevrilmişlər. Onlar "Qafqaz Albaniyası"na aid cızdıqları saxta xəritələrdə cənub-qərbdən Naxçıvan Vilayətində Araz çayı sahilində yerləşən Oğuz türklərinə aid olan Dərəşam akropolundan başlayaraq, şimali-şərdə Qara dənizə tökülən Rion çayı sahillərində hüdudlanan, cənubi-şərqdən Xəzər dənizinə söykənən qədim "Kaspiana"dan (Mil-Muğandan) şimal-şərqdə Xəzərə doğru uzanan qədim Dərbənd torpaqlarını geniş coğrafiyada birləşdirən Azərbaycan türklərinin qədim "Ön Qafqaz Oğuz Albaniyası" dövlətini parçalayırlar. Ancaq onlar "Qafqaz Albaniyası"nın qonşuluğunda yerləşən ölkənin nə adını çəkirlər, nə də onun əhalisi barədə məlumat verirlər. Bu nə, deməkdir? Bu, o deməkdir ki, Ön Qafqaz coğrafiyasının bu saxta bölgüsünü adları bizdən olan bu yadlar, necə deyərlər, yaxalarını açıq şəkildə ələ verməmək üçün erməni tarixçilərinin uydurma "Böyük Armeniya" mifinin "şərq" hissəsi kimi üstü örtülü şəkildə saxlayırlar. Bununla da, bizə yad olan bu kimsələr fırıldaqçı anonim keşiş Mesrop Maştosun guya "Qafqaz Albaniyası"nın əhalisinə "əlifba" tərtib etməsindən və "bütpərəst" ölkə əhalisini "xristiana çevirməsi"ndən danışarkən, erməni tarixçiləri ilə bir sırada özlərini erməni kilsəsinin varisləri olaraq nişan verirlər.

Bu azmış kimi, onlar imperiyanın saxta "Qafqaz Albaniyası" işğalçı modelinə "dövlət" olaraq, siyasi-inzibati coğrafi ərazi xəritəsi də tərtib edirlər, ölkə əhalisinin çoxluğu ermənilərdən və bir qədər də kiçik etnik qruplardan ibarət olduğunu yazırlar. Bu fikir Azərbaycan türklərinin qədim tarixini açıq-aydın şəkildə danmaqdır, etnik xəyanətdən başqa bir şey deyildir. Başqa sözlə, bu, tarix deyil, düşmən dəyirmanına su axıdan adı bizdən olan məlum tarixçilərin siyasi mövqeyidir, işğalçı imperiyanın "türksüz Qafqaz" ideoloji silahını dəstəkləməkdir. Əlbəttə, ötən onilliklərdən Kremlin zəhərli işğalçı doğmasından gələn bu yad və bağışlanılmaz mövqe bu gün əsassız torpaq iddiası ilə əlaqədar erməni-rus hərbi birləşmələrinin qəddarlığı ilə M.S. Qorbaçovun "Qanlı Qarabağ tarixi" yazmasına gətirib çıxarmış oldu."

Əjdər Tağıoğlu bütün bu məsələlərə, yeri gəldikcə, tarixi kontekstdə elmi sübutlarla aydınlıq gətirir. Araşdırmanın bu axarında alim əsaslı dəlillər gətirərək, o nəticəyə gəlir ki, nəinki V əsrdə "Mesrop əlifbası"ndan, hətta tarixin heç bir çağında erməni xalqının mövcud olmamış etnolinqvistiksı əsasında yaradılan fonetik səslərin sistemə salınmış real "əlifbası"ndan, başqa sözlə, "erməni yazısı"ndan danışmaq yersizdir. Azərbaycan aliminin gəldiyi bu nəticəni "erməni yazısı"nın XVIII əsrədək "yuxuda olduğunu", "bundan sonra tədricən ədəbiyyat və dilçiliyin görünməyə başladığını" yazan görkəmli erməni filosofu və dilçi alimi Mikael Lazareviç Nalbandyanın vaxtilə söylədiyi fikri də təsdiq edir.

Ə.Tağıoğlu geniş araşdırmanın nəticəsi olaraq, inandırıcı dəlillərlə sübut edir ki, erməni xalqının özünəməxsus etnotarixləri və etnoyazıları olmamışdır. Onların saxta "tarixləri" üç türk dövlətinin (Biani, Arme, Part) tarixidir. Bu gün "erməni yazısı" adlandırılan yazı isə "Avesta yazısı"nın kilsədə üzü köçürülmüş variantıdır.

Araşdırıcı fikrinə davam edərək yazır ki, "belə bir tarixi həqiqət meydanda ola-ola, yaşadığı mənzilin dörd divarının arasını "vətən", kiçik ailəsini "xalq" hesab edən mənsəb və şöhrət sahibi olmuş, Kremlin erməni tiryəki ilə beyinləri zəhərlənmiş, dini inancı məlum olmayan, soy-kök qanı işğalçı imperiya siyasətinə uyğun gələn, bu səbəbdən, Azərbaycan tarixşünaslığında mirqəzəb qılıncına çevrilmiş bəzi tarixçilərin nə özlərinə də onların yetirmələri, istər cənubda, istər şimalda, nə "türk" deyilən yerli əhalini "gördülər", nə də onlara məxsus olan "Avesta" abidəsini yada saldılar. Onlar xalqı xəyanətlə Kremlin siyasət beşiyində 70 il yuxulatdıqları dövrdə erməni tarixçiləri və dilçi alimləri yaradılmış bu şəraitdən qurd fürsətilə istifadə etdilər.

Azərbaycan türklərinin üstünə siyasi qara pərdə örtülmüş bu qaranlıq tarixinə azəbaycançılıq kontekstində aydılıq gətirmiş Əjdər Tağıoğlunun ermənilərin ötən əsrlərdən sirli-sehrli qapılar arxasında elmi ictimaiyyətdən gizli saxladıqları tarixi həqiqətləri aşkara çıxaran "Mesrop Maştos əlifba ixtiraçısı deyil, fırıldaqçı anonim keşişdir" qiymətli əsəri Azərbaycan dilçiliyində nadir tarixi hadisədir.

Bu kitabın siyasi, tarixi və elmi məziyyətlərindən biri də bu gün dünya ermənilərinin və onların xristian qardaşlarının Dağlıq Qarabağla əlaqədar məkrli iddialarını ifşa edən bir epizodda - ermənilərin 1860-cı ildən Qarabağa Cənubi Azərbaycanın Qaradağ əyalətindən günəmuzd dolanışıq üçün ailə şəkilində gəlib yerləşdiklərinin mənbə əsasında verilməsidir.

Əjdər Tağıoğlu qərbdən Ağrı dağının vadisində Arazın sahilindən indiki Xəzər dənizi arasında yerləşmiş Ön Qafqaz coğrafiyasında yerli qədim türk əhalisinin min illərlə yaratdığı qədim mədəniyyətini öyrənə-öyrənə, tarixin, mədəniyyətin ümumi inkişaf yolunu dərk edə-edə həqiqətləri üzə çıxarmışdır: "Xalqımız öz keçmişini öyrənməlidir ki, gələcək yolunu düzgün müəyyənləşdirə bilsin".

Araşdırma zamanı aşkar olan əsas fikirlərdən biri də budur ki, "çağdaş erməni yazısı "Avesta yazısı"nın kilsədə üzü çıxarılmış şəklidir" deyə, qəti nəticəyə gələn Əjdər Tağıoğlunun Azərbaycan dilçiliyində gəldiyi nəticəni təkzib etmək üçün erməni tarixçi və dilçi alimlərinin əllərində bu günə kimi, kilsədə uydurulmuş əfsanə və rəvayətlərdən başqa, heç bir elmi-tarixi dəyərə malik maddi-sübut yoxdur və ola da bilməz. Digər bir təkzibedilməz tarixi həqiqət də budur ki, indiki erməni xalqının mənəvi və mədəni həyatının formalaşmasında, inkişafında və təkmilləşməsində "Avesta /Aremey yazısı" (İ.M. Dyakonov) və "Avesta" memarlıq sənəti ilə yanaşı, Azərbaycan türklərinin yazılı mifoloji və filoloji abidələrinin ( Mar tayfalarına mənsub rapsod aşıqların hökmdar babalarının tarixinə aid düzüb-qoşduqları "Əjdahalar haqqında nəğmələr" dastanını "Vipasank" adı ilə erməni dilinə çevirib "özəlləşdirmişlər". Ahura-Məzdanı "Aramazi" adı ilə özlərinə Baş Tanrı seçərək "Avesta" Tanrı panteonu əsasında özlərinə "Erməni mifologiyası" ədəbiyyatını yazmışlar və s.) müstəsna tarixi əhəmiyyəti olmuşdur.

Əjdər Tağıoğlu yeri gəlmişkən, onu da qeyd edir ki, Böyük İnsan tarixi içərisində tarixsiz yaşamış ermənilər, qədim etnik mənsubiyyətləri məlum olmadığı üçün, başqa xalqlardan - "Mesrop" adını yunan ədəbiyyatından, "Maştos" ləqəbini bizim "Avesta" abidəmizdən götürüb, onların calağından "Mesrop Maştos" adında fırıldaqçı anonim keşiş obrazı yaratmışlar.

"Erməni əlifbası" dedikləri əsli olmayan uydurmanı yunandilli anonim keşiş Mesropun adıyla saxta "tarix"ə çevirməyə çalışan erməni tarixçiləri və dilçi alimləri heç bir elmi arqument gətirmədən süni yolla N.Eminin araşdırma boyu meydana çıxardığımız ziddiyyətli fikirlərinin davamçılarıdırlar.

Əjdər Tağıoğlu qətiyyətlə bildi-

rir ki, erməni tarixçiləri hər hansı bir fikiri irəli sürərkən, adətləri üzrə heç bir tarixi fakta, maddi-mədəniyyət nümunəsinə söykənmirlər, əksinə, hətta yazdıqları ayrı-ayrı səhifələrdə bir-birini qəbul etməyən güman və fərziyyələrlə "Armeniya" "dövləti", "erməni əlifbası" "tarixi" yazmağa çalışırlar.

Yenə də tədqiqatçı çox haqlı olaraq, düşmən dəyirmanına su axıdan bəzi Azərbaycan alimlərini qınağa çəkir: "Bu günə kimi, hətta Azərbaycan tarixçi və dilçi alimlərdə M.Xorenatsidən gələn bir saxta ənənə, elə bir qənaət yaratmışdır ki, guya Mesrop Maştos "albanlara 52 hərfdən ibarət əlifba tərtib etmişdir". Ancaq onlar müstəqil tədqiqatlar apararaq, gerçəkliyi müəyyənləşdirməmişlər, 70 il bu saxta kilsə ənənəsini ideoloji silaha çevirmiş erməni tarixçi və dilçi alimlərinin məkrli saxta iddialarının arxasınca getmişlər. Bununla da, "bizim" alimlər ermənilərin dövlətçilik tariximizi süni şəkildə astagəl gedişlərlə ələ keçirməyə çalışdıqlarına etinasız olmuşlar və maraqsız olmuşlar. Çox təəssüf!!!"

Müəllif fikrini bir qədər də başqa məzmunda davam etdirərək yazır ki, Azərbaycan elmi ictimaiyyətində o dövrdə "qılıncının dalı da, qabağı da kəsən" bəzi məlum mühafizəkar tarixçilər də ermənilərlə birləşərək, üzdəniraq erməni saxtakarlığının nəticəsi kimi ortaya çıxan "Mesrop əlifbası"nın, "erməni yazısı"nın "qədimliyini", nəinki qəbul etmişlər, hətta bu mifin ideoloquna çevrilmişlər.

Əjdər Tağıoğlunun sözlərinə tarixi haqq qazandıraraq, qeyd edirik ki, çörəyini yediyi xalqdan uzaq düşmüş bu tipdən olan alimlər Azərbaycan coğrafiyasında Azərbaycan türkünü qəbul etmirlər, onun ərazisində olan xalqların mənşəyini İran və uydurma Qafqaz xalqları və onların dilləri əsasında zorla "əsaslandırmaqdan" mənəvi zövq almışlar. Ən azından, tarixi həqiqəti inkar etmək vicdansızlıqdır. Tarixi həqiqəti pərdələmək insafsızlıqdır. Tarix tarixdir! Ona böhtan yapışmaz!

Araşdırma boyu tarixi həqiqətləri maddi sübutlarla, təkzibedilməz faktlarla meydana qoyan Əjdər Tağıoğlunun fikirlərinə heç bir kəs etiraz edə bilməz. Bu fikirləri qeydsiz-şərtsiz qəbul etməliyik! Fikrimizcə, Azərbaycan dilçiliyinin yeni istiqamətini aydın işıqlandıran, müəllif barədə vətənpərvərlik təəssüratı yaradan "Mesrop Maştos əlifba ixtiraçısı deyil, fırıldaqçı anonim keşişdir" adlı qiymətli əsər, ümumilikdə, xeyirxah bir niyyətə xidmət etmək baxımından da qiymətlidir.

Deyirlər, dünyanın mizanı vicdan susanda pozulur. Hər cür humanist duyğulardan məhrum olan erməni və rus şovinistləri Azərbaycan xalqının da mizanını pozmuşlar. Vicdansızlar qladiator döyüşlərini zaman-zaman davam etdirirlər.

Rus-erməni "xristian qardaşları" birliyinin Azərbaycan xalqına qarşı çevrilmiş qanlı oyunlarına, haqsızlıqlarına dözməyən Əjdər Tağıoğlunun cəsarətlə və ağır zəhmətlə yazdığı bu kitab bir çox tarixi həqiqətlərin qapısını açmaqla da qiymətlidir. Belə ki, bu əsər türk tayfalarının Azərbaycan ərazisinə sonradan gəldiyini və birdən-birə yerli aborigenlərin dilini sıxışdırıb aradan çıxardığını iddia edənlərin yanlış fikirlərini ustalıqla təkzib edir, hələ eradan çox-çox əvvəllər ölkəmizin ərazisində türk tayfalarının, türk mənşəli dilin mövcud olduğunu və türk qövmünün sonrakı (bir neçə dəfə) gəlişləri ilə bu tayfaların, türk dilinin gücləndiyini, tədricən ümumxalq dilinə çevrildiyini sübut edir. Ancaq bu istiqamətdə aparılan araşdırmalar erməni yalanlarına və saxtakarlıqlarına birdəfəlik son qoya bilər və ciddi nəticə verə bilər. Beləliklə, müəmmalı suallara cavab axtaran və tapan, xalqımızı dərindən düşündürən bu kimi tarixi məsələləri cəsarətlə, qorxmadan, çəkinmədən şərh etmiş, ehkamlara dözməyən Əjdər Tağıoğlunun bu kitabı bütün vətənsevərlər, Qarabağsevərlər üçün bir müjdədir, sözün əsl mənasında, vətəndaş-alim hədiyyəsidir! Bu baxımdan, AMEA-nın Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə 2008-ci ildə 800 səhifədən ibarət çap edilən monumental "Qədim Ön Asiya və Ön Qafqaz türk tayfaları" kitabının nəşrindən başlayaraq, müəllif bu günə kimi elmimiz üçün misilsiz işlər görmüşdür. Bu, meydanda olan danılmaz həqiqətdir ki, Əjdər Tağıoğlu bir alim-vətəndaş kimi, dövlətimizin ideoloji-siyasi xəttini təşkil edən azərbaycançılıq mövqeyindən qısa müddətdə gördüyü işi bu günə kimi aidiyyəti olan tədqiqat inistitutlarımız görə bilməmişdir.

Tanınmış alimin qısa müddətdə minlərlə oxucu auditoriyası tərəfindən vətənsevərlik ruhu ilə qəbul edilmiş "Moisey Xorenatsi anonim keşiş müəllifdir" (2016-cı il, 127 s.) və "Mesrop Maştos əlifba ixtiraçısı deyil, fırıldaqçı anonim keşişdir" (2017-ci il,141s.) hər iki qiymətli əsəri xarici dillərə tərcümə edilib, dünya elmi ictimaiyyətinə yayılarsa, bu gün ermənipərəst dünyanın qarayaxa, haqsız və ədalətsiz irtica qüvvələri ilə üz-üzə dayanmış Azərbaycanın xarici diplomatiyası əlində ən kəsərli ideoloji silaha çevrilmiş olar. Qəti əminəm ki, vətənin qədim tarixini, Qarabağı və dövlətini qəlbən sevən hər kəs mənim çağırışıma qoşulacaqdır.

# Azərbaycan-Bosniya və Herseqovina işgüzar görüşü keçirilib



İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Bosniya və Herseqovina işgüzar görüşü keçirilib. SİA-nın məlumatına görə, tədbirdə rəsmi şəxslərlə yanaşı, hər iki tərəfdən kənd təsərrüfatı və qida sənayesi, sənaye, maliyyə, İKT, tikinti, tekstil və xidmət sahəsində fəaliyyət göstərən 60-a yaxın iş adamı iştirak edib. İşgüzar görüşdə çıxış edən AZPROMO-nun rəhbəri Rüfət Məmmədov Azərbaycanda qeyri-neft ixracının genişləndirilməsi, investisiyaların təşviqi sahəsində reallaşdırılan tədbirləri diqqətə çatdırıb, ixraca dəstək mexanizmlərinin ölkəmizin xarici iqtisadi əlaqələrinin genişləndirilməsində, ixrac imkanlarının artırılmasında əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, xarici şirkətlərin fəaliyyəti üçün ölkəmizdə əlverişli şərait yaradılıb və Bosniya və Herseqovina iş adamları da bu imkanlardan yararlana bilər.

Bosniya və Herseqovinanın Olovo şəhərinin meri Cemal Memaqiç bosnyalı iş adamlarının Azərbaycan iqtisadiyyatına böyük maraq göstərdiyini bildirib, bu gün keçirilən tədbirin yeni işgüzar əlaqələrinin qurulması və mövcud əməkdaşlığın daha da genişləndirilməsi baxımından əhəmiyyətini diqqətə çatdırıb, iş adamlarını fəal əməkdaşlığa dəvət edib. Sonra AZPROMO-nun əməkdaşı Mahmud Əliyevin Azərbaycanın investisiya mühiti və biznes imkanlarına dair təqdimatı dinlənilib. Tədbir iş adamları arasında ikitərəfli görüşlərlə davam etdirilib.

# İtaliya səfiri: "Mədəniyyət sektoru Azərbaycan iqtisadiyyatının vacib hissəsidir"

Gözəl ənənələrə və tarixi irsə malik Azərbaycan iqtisadiyyatın vacib tərkib hissəsi olan mədəniyyət sektorunu daha da inkişaf etdirə bilər. Trend-in məlumatına görə, bunu Bakıda "Tvininq layihələrin nailiyyətlərinin bugünü və gələcəyi" tədbirində İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari deyib. Onun sözlərinə görə, mədəniyyət millətin ayrılmaz hissəsi olduğu üçün bu layihə çox vacibdir.



# "Liderliyə" layiq olmayanlar "liderlik" axtarışında

RƏFİQƏ

*Ölkəmizdə 1993-cü ildən bu yana keçirilən seçkilər ərəfəsi müxalifət düşərgəsində partiya sədrlərinin elə bil kürkünə birə düşür. Ənənəvi müxalifətin "liderlik" problemi elə 25 il öncə necəydisə, eləcə də, qalmaqdadır. Elə zənn edirlər ki, qalstuk taxmaq, gözlərinə qara eynəkdən-zaddan qoyub, laklı ayaqqabı geymək "lider" olmaqdır. Elə götürək İsa Qəmbəri, Əli Kərimlini, Cəmil Həsənlini... və hamısı bir bezin qırağı olan zadları... Bu zadların hamısı özünə görə bir "lider" olur. Amma bu zadları istər xalq, istərsə də öz düşərgələrində qəbul edirlərmi, ya da onlar "liderliyin" mənasını anlayırlarmı? Söz danışdın da, nədən bunları bilmək üçün illər sərf edibdir? Qətiyyən yox! Uzun illərdir seçkilərdən-seçkilərə doğru böyük məğlubiyyətlər yolu keçən dağıdıcı müxalifət "liderləri" "lider" olmaq üçün çox çarpışıblar, çox savaşıblar, çox söyüşüblər, satılıblar, vətən xaini olublar... Ancaq yenə də hərə ayrı-ayrılıqda özünü bir "lider" sayır. Vahid "lider" isə yenə də ortaya çıxmır.*

Nə "Demkonqres"də, nə "Müxalifətin Koordinasiya Mərkəzində", nə "Bizim Azərbaycanda", nə "Azadlıq" bloklarında, nə "DUH"-da, nə "SİDSUH"-da, nə "İctimai Palata"da, nə də ki... Ta ki, "Milli Şura"ya qədər. Doğrudur, düzdür, ortaya çıxan oldu, amma ortaya çıxanı da o biriləri, gözlənildiyi kimi, "lider" seçmədi. Axır ki, bu başabəla "liderlik" sözü müxalifətdə o qədər zəhlətökən tərzdə ifadəyə çevrildi ki, camaat da "lider" deyənlərin ağzının üstündən qəşəng bir şapalaq ilişdirdilər və dedilər ki, əşşi, nə liderbazlıqdır axı! "Liderliyə" layiq olmayanar liderlik axtarışına çıxmağın mənası yoxdur.

Elə bu azmış kimi, AXP sədri Pənah Hüseyn nöfbəti il keçirilməsi planlaşdırılan prezident seçkiləri ərəfəsi "lider" olmaq iddiasına düşüb. P.Hüseyn bəyan edir ki, o, ümummüxalifətin "lideri" olmağa hazırdır, ancaq ay Pənah, gəl gör o biri "liderlər" nə deyirlər? Bir də, P.Hüseyn elə ideya irəli sürüb ki, digər tərəflər onu səmimi qarşılamadı, hətta onun "liderliyini" şübhə altına aldılar.

Məsələn, ADP sədri Sərdar Cəlaloğlu deyir ki, nə olar, o da yazıqdır, qoy özünü ümummüxalifətin "lideri" hesab etsin: "Ruslar demişkən, "dux" alsın. Amma gərək "liderliyə" layiq olasan. Bu ada iddia edən şəxs tolerant, səbirli və uzaqgörən olmalıdır. Mən Pənah bəyi həddən artıq qeyri-tolerant, tez əsəbiləşib özündən çıxan adam kimi tanıyıram. Bu keyfiyyətlərlə kiçik bir qrupun lideri olmaq çox çətindir. Bunlar P.Hüseynin qüsurudur. Pənah Hüseyndən "lider"- filan çıxmaz". Məsələ aydındır. Bax, bu yerdə çox düz buyurursan, Sərdar bəy.

Yaxşı bəs onda kimdən, hansı müxalifətçidən "lider" çıxar? Əli Kərimlidənmi? Yox, onun da satıla-satıla nəyi qalıb ki?.. AXCP sədrinə də bir quş.

Bəlkə İsa Qəmbərdən "lider" çıxar? Yox qardaş, ondan da çıxmaz. Çünki o, ümumiyyətlə, heç vaxt "lider" olmayıb. Bir də "lider" olsaydı, indi Arif Hacılı Müsavatda at nədir, heç fil də oynatmazdı!

Bəlkə Mirmahmud ağa? Lalə Şövkət? Rəsul Quliyev? C.Həsənli?.. Əsla, yox! Onlar satqınların, vicdansızların, vətən xainlərinin liderləri ola bilərlər. Qaldı ki, müxalifətin "lideri" olmaq üçün heç olmasa, müxalifətçilik etmək lazımdır. Fəqət, biz ortada müxalifət deyil, müxalifətvari bir zad görürük. Ona görə də, Pənah bəy özünü müxalifətin deyil, eləcə müxalifətvari bir zadın "liderəbənzəri" hesab etsəydi, daha yaxşı olardı. Nə vaxt doğru-dürüst müxalifət yaranarsa, bax özlərini özünü "lider" hesab edə bilərlər. Bunu isə, atalar demişkən, "dəvənin quyruğu yerə dəyəndə" görə bilərlər.

# "Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur"

*YAP Siyasi Şurası və Mətbuat Şurası İdarə Heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Azərbaycan Universitetində "Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur" mövzusunda mühazirə söyləyib*

Yeni Azərbaycan Partiyası Siyasi Şurası və Mətbuat Şurası İdarə Heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Azərbaycan Universitetində "Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur" mövzusunda mühazirə söyləyib. Mühazirədən öncə, Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru, professor Yusif Qasımov tələbələri salamlayaraq "İki sahil" qəzetinin baş redaktoru ilə görüşün mühüm və əlamətdar günlər ərəfəsinə təsadüf etdiyini bildirib.



2018-ci idə Azərbaycan Demokratik Cümhuriyyətinin 100 illiyinin qeyd olunacağını qeyd edən prorektor söyləyib ki, ölkəmiz bu illər ərzində keşməkeşli yollardan keçərək, indiki inkişaf səviyyəsinə gəlib çatıb.

Sonra çıxış edən Vüqar Rəhimzadə Azərbaycan dövlətinin inkişaf tarixindən söz açaraq bildirib ki, 1991-ci ildə müstəqilliyini bərpa edən ölkəmiz 26 il müddətində ortaya 100 il müstəqillik tarixinə malik olan ölkələrdən daha yüksək təcrübə qoya bilib. 1990-cı illərin əvvəllərində Azərbaycanda baş verən hadisələr haqqında danışan baş redaktor söyləyib ki, ölkəmiz XX əsrin 90-cı illərinin əvvəllərində xəritədən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı: "O zaman insanlar çörəklə sınağa çəkilirdi. Məhz həmin dövrdə siyasi və silahlı qruplaşmaların fəaliyyəti nəticəsində ölkəmizdə özbaşınalıq və hakimiyyətsizlik hökm sürürdü. O dövrdə iqtidarda olan vəzifə hərislərinin yarıtmaz fəaliyyəti nəticəsində ölkəmiz ağır vəziyyətə düşmüşdü. Vətəndaş müharibəsi başlamışdı. Ümumilikdə Azərbaycan dünya xəritəsindən silinmək təhlükəsi ilə üzləşmişdi. Müstəqillik haqqında Aktın qəbul olunmasına baxmayaraq, müstəqilliyin atributlarından söhbət gedə bilməzdi. Yalnız xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı nəticəsində Azərbaycan bütün bu bəlalardan qurtula bildi. İqtisadi inkişafın təməl prinsipləri yarandı, uğurlu neft müqavilələri imzalandı, vahid ordu quruculuğu formalaşdırıldı, ictimai-siyasi sabitlik yarandı. Əgər o zaman ictimai sabitlik təmin olunmasaydı, bu gün siyasi sabitlikdən danışa bilməzdik".

YAP Siyasi Şurasının üzvü vurğulayıb ki, Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra neft müqavilələrinin imzalanması Azərbaycanın bugünkü güclü iqtisadiyyatının təməlini qoydu: "Məhz Ulu Öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü ildə "Əsrin Müqaviləsi" imzalandı. Bununla da, Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafının əsası qoyuldu. Bundan sonra ölkədə mükəmməl qanunvericilik bazası formalaşdırıldı, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Hüquqi-dünyəvi və demokratik dövlət quruculuğu sahəsində uğurlu addımlar atıldı, insan hüquq və azadlıqlarının daha mükəmməl təminatı istiqamətində mühüm islahatlar həyata keçirildi. Bir sözlə ifadə etsək, deyə bilərik ki, bu gün Azərbaycan uğurla inkişaf edir və bu uğurun arxasında Ulu Öndərin uzaqgörən və düşünülmüş inkişaf strategiyası dayanır."

Bu gün müstəqil və qüdrətli Azərbaycan dünyanın demək olar bütün beynəlxalq təşkilatlarının tam hüquqlu üzvüdür. Azərbaycan dünya siyasətində qətiyyətli mövqeyə malikdir. Azərbaycanda atılan bütün addımlar və verilən bütün qərarlar insan amilinə söykənir. Vətəndaşlarımızın daha yaxşı yaşaması üçün lazımi addımlar atılır. Bu aparılan dövlət siyasətinin aparıcı ana xəttini təşkil edir.

"İki sahil" qəzetinin baş redaktoru qeyd edib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda söz və mətbuat azadlığından danışmaq qeyri-mümkün idi: "1998-ci ildə Ümummilli Liderin müvafiq Fərmanı ilə mətbuat üzərindən senzura götürüldü. Bununla da, azad mətbuatın inkişafına əngəl yaradan süni maneələr aradan qaldırıldı. Həmçinin, KİV-in maddi-texniki bazası möhkəmləndirildi və mətbuat işçiləri ilə mütəmadi görüşlərin ənənəsi yaradıldı. Bu diqqət və qayğının nəticəsi olaraq Ulu Öndər Heydər Əliyev 2002-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görüldü. Heydər Əliyev ideyalarının layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün ölkəmizdə söz və mətbuat azadlığı ən yüksək səviyyədə təmin edilir. Möhtərəm Prezidentimizin müvafiq Sərəncamı ilə KİV-in İnkişafına dövlət dəstəyi konsepsiyasının təsdiqlənməsi, bu sənədə uyğun olaraq Cənab Prezident İlham Əliyevin 3 aprel 2009-cu il tarixli Sərəncamı əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması bir daha bunu təsdiqləyir. Mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı imzalanan davamlı sərəncamlar ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandı. Jurnalistlərin mənzil-məişət problemləri önə çəkildi. İlk Sərəncam 2010-cu ildə Milli Mətbuatımızın 135 illiyi ərəfəsində imzalandı. Sərəncama uyğun olaraq, mətbuat işçilərinin mənzil-məişət şəraitinin



yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi məqsədilə 2010-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsait ayrıldı. Milli mətbuatın 138 illiyində həmin binanın açılışı oldu. 17 mərtəbəli, iki bloklu, 156 mənzilli bina jurnalistlərin istifadəsinə verildi. Ev alan jurnalistlər arasında heç bir ayrı-seçkiliyin qoyulmaması, yəni siyasi mövqeyindən asılı olmayaraq, bütün media nümayəndələrinin bu qayğıdan bəhrələnmələri dövlətimizin azad mətbuatın inkişafına diqqət və qayğısının bariz nümunələrindən biri idi. Bu il iyulun 20-də isə jurnalistlər üçün tikilmiş növbəti 256 mənzilli binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində çıxış edən Cənab Prezident İlham Əliyev bir sıra mühüm tezisləri diqqətə çatdırdı. "Azərbaycan jurnalistikası inkişaf edir və cəmiyyətdə çox müsbət rol oynayır" deyən Möhtərəm Prezidentimiz bir daha jurnalistlərə diqqət və qayğı ilə yanaşdığını xüsusi olaraq vurğuladı."

Mətbuat Şurası İdarə Heyətinin üzvü əlavə edib ki, bu il Azərbaycan üçün kifayət qədər mühüm tarixi məqamlarla yadda qalacaq: "Beynəlxalq birliyin diqqət mərkəzində olan "Yeni əsrin müqaviləsi"nin imzalanması, üstəlik, bu günlərdə Bakı-Tbilisi-Qars (BTQ) Dəmir Yolu Xəttinin istifadəyə verilməsi və digər Azərbaycanımız üçün çox böyük əhəmiyyəti olan tarixi hadisələr bunun bariz nümunəsidir. Bakıdan başlayaraq Gürcüstanın Tbilisi və Axalkalaki şəhərlərindən keçərək, Türkiyənin Qars şəhərinə gedən, beləliklə Azərbaycanla Türkiyəni, Şərqlə Qərbi birləşdirən bu dəmir yolu xətti ölkəmizə böyük siyasi və iqtisadi dividendlər gətirəcək. Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılışı çox böyük tarixi hadisədir. Yadınızdadırsa, 2005-ci ildə BTC-nin Azərbaycan hissəsinin açılışında BTQ Dəmir Yolu Xətti Layihəsi haqqında bəyannamə, 2007-ci ildə isə dəmir yolu xəttinin tikintisinə başlanması ilə əlaqədar saziş imzalandı. Xüsusi olaraq, vurğulamaq lazımdır ki, Bakı-Tbilisi-Qars Layihəsinin reallaşmasında, məhz Azərbaycanın böyük rolu olub. Bu amil isə, bir daha onu göstərir ki, Azərbaycan regional və qlobal əhəmiyyətli layihələrin əsas iştirakçısı və təşəbbüskarıdır. Bu layihənin reallaşması Azərbaycan, Türkiyə və Gürcüstanın birliyinin yüksək səviyyədə olduğunu göstərir: "Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılış mərasimində çıxış edən Möhtərəm Prezidentimiz İlham Əliyev bir sıra mühüm məqamlara aydınlıq gətirdi. Ölkəmizin başçısı bildirdi ki, çoxları, xüsusilə, bəzi xarici dairələr Bakı-Tbilisi-Qars Dəmir Yolunun tikintisinə inanmırdılar. Hesab edirdilər ki, bunun reallaşması mümkün deyil, bunun reallaşması üçün lazım olan texniki imkanlar və maliyyə vəsaiti imkan verməyəcək ki, bu layihə gerçəkləşdirilsin. Lakin üç ölkə sübut etdi ki, bu, mümkündür. Azərbaycanın güclü iradəsi, qarşılıqlı dəstək və inam olan yerdə bütün işləri görmək mümkündür. Bakı-Tbilisi-Qars Dəmir Yolunun tikintisi bunun sübutudur. Cənab Prezidentimiz regional əməkdaşlığa ən böyük töhfə verən ölkələr - Azərbaycan, Gürcüstan və Türkiyənin bundan sonra da daim bir yerdə olacaqlarına və bir-birini dəstəkləyəcəklərinə əminliyini ifadə etdi. Hesab edirəm ki, bu əməkdaşlıq region və dünya üçün təhlükəsizlik, sülh və inkişaf vəd edir."

YAP Siyasi Şurasının üzvü çıxışının sonunda tələbələrin diqqətinə bu günlərdə partiyanın 25 yaşının qeyd edildiyini çatdırıb: "Bugünkü görüşümüzün Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi ərəfəsində baş tutması çox mühümdür. Çünki YAP öz qətiyyətli mövqeyi ilə xalqa xidmət nümunəsini ortaya qoyur. Partiyamızın özünəməxsus dəyərləri, xalqımız və dövlətimiz üçün böyük töhfələri var. YAP Azərbaycanın həyatına siyasi mədəniyyət gətirdi. Mən bütün partiya üzvlərini yubiley münasibətilə ürəkdən təbrik edirəm".

Bir sözlə, bu gün müasir və qüdrətli Azərbaycan dövləti dünya birliyində öz layiqli yerini tutmaqdadır. Möhtərəm Prezidentimiz İlham Əliyevin Ulu Öndər Heydər Əliyev ideyalarına söykənərək, Azərbaycanımızın daha yüksək zirvələri fəth etməsi üçün uğurlu siyasət aparır. Biz də dövlət başçımız Cənab İlham Əliyevin həyata keçirdiyi bu işlərə var gücümüzlə dəstək olmalıyıq və vətəndaşlıq mövqeyi nümayiş etdirməliyik. Mühazirə diskussiya şəklində davam edib.

## İranda zəlzələ qurbanlarının sayı 474 nəfər oldu



İranın İraqla sərhədində baş vermiş zəlzələ qurbanlarının sayı artmaqda davam edir. Trend-in məlumatına görə, yerli "Tasnim" agentliyi son rəqəm olaraq ölənlərin sayını 474 nəfər qeyd edib. Yaralıların sayı isə 9388 nəfər göstərilib. Qeyd edək ki, İranın İraqla sərhədində noyabrın 12-də 7,2 bal gücündə zəlzələ baş verib. Xatırladaq ki, zəlzələ güclü olduğundan yeraltı təkanlar hətta Azərbaycan, Küveyt, BƏƏ-də də az bal gücündə hiss olunub.

# Azərbaycan dünya üçün əhəmiyyətli ölkədir



Azərbaycanın real həyat tərzi, onun inkişafı, daxili siyasi sabitliyin təmin olunması, əmin-amanlıq, ölkəmizdə beynəlxalq səviyyədə olan tədbirlərin təşkili dünyanın müxtəlif ölkələrinin nüfuzlu mətbu orqanlarında, internet portallarında və televizyalarında işıqlandırılır. "Neft, qaz və göydələnlər. Azərbaycan dünyanı cəlb edir", "Azərbaycanın İtaliya üçün əhəmiyyəti", "Azərbaycan demokratiyanın tərkib hissələrini tam şəkildə cəmləşdirir" kimi onlarla belə məqalələrdə Azərbaycanın enerji təhlükəsizliyi sahəsində Avropanın regiondakı əsas tərəfdaşı olduğu, iqtisadi inkşafı, regionun lider ölkəsinə çevrilməsi, Azərbaycan müsəlman ölkəsi kimi xalqlar arasında mədəniyyətlərarası dialoqu tam dəstəkləməsi, Azərbaycanın ilk milli "Azərspace-1" telekommunikasiya peykinin orbitə buraxılması, BMT Təhlükəsizlik Şurası kimi mötəbər bir təşkilatına üzv olması və s. məsələlər qeyd olunur. Şəffaflığın artırılması məqsədilə Azərbaycanda "ASAN Xidmət"in təsis edilməsi və bu xidmətin yaradılmasının müxtəlif xidmətlərdən istifadənin asanlaşdırdığı, elektron-idarəetmə sahəsində yeniliklərin tətbiqinə şərait yaradıldığı vurğulanır. Bu gün Azərbaycan sivil ölkə kimi beynəlxalq nüfuz və yüksək imicə sahib ölkə olaraq təqdim olunur. Dünya ölkələri ilə müxtəlif sahələrdə olan əməkdaşlıq belə diqqətdən kənarda qalmır. Bu günlərdə Pekində çıxan "Çin gəncliyi" qəzetində Azərbaycan-Çin elmi-ədəbi əlaqələrinə aid dərc olunan məqalədə Çin və Azərbaycan arasında dostluq əlaqələrinin sürətlə güclənməsi ilə iki ölkə arasında elmi mübadilənin inkişafının daha intensiv xarakter aldığı, yeni elmi nailiyyətlərin qazanıldığı qeyd olunub.

"Elmi mübadilənin güclənməsi Çin-Azərbaycan dostluğunun və əməkdaşlığının inkişafına, "Bir kəmər, bir yol" strategiyasının həyata keçməsinə təkan verir" başlıqlı məqalənin müəllifi, qəzetin Cənubi Qafqaz üzrə müxbiri Xuanq Çinqdir. Müasir dövrümüzdə Azərbaycan Avrasiyada mədəniyyət körpüsü və qovşağı rolunu getdikcə artırmaqdadır. Qədim İpək Yolu Çin və Azərbaycan xalqlarını bir-birinə daha da yaxınlaşdırıb. Hazırda Çin-Azərbaycan münasibətləri sürətlə inkişaf etməkdədir. Müəllif bütün bunlarla yanaşı, elmi mübadilənin güclənməsinin iki xalqın bir-birini daha yaxından tanımasına zəmin yaratdığını və ölkələr arasındakı dostluğu daha da dərinləşdirdiyini bildirib.

2015-ci ilin dekabr ayında Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri zamanı iki ölkə arasında "İpək Yolu iqtisadi kəmərinin birgə inkişafı haqqında anlaşma memorandumu", təhsil, dəmiryolları, nəqliyyat və digər sahələrdə əməkdaşlığa dair bir sıra sənədlər imzalanıb ki, bu sənədlər iki ölkənin konkret sahələrdə əməkdaşlığı üçün özül zəmin yaradaraq, konkret istiqamətləri müəyyənləşdirib.

Müxbir Çin-Azərbaycan dostluq münasibətlərinin perspektivləri, Çin-Azərbaycan elmi mübadiləsinin genişlənməsi mövzusunda AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, akademik İsa Həbibbəylidən müsahibə alıb. Akademik bildirib ki, "Bir kəmər, bir yol" təşəbbüsü gerçəkləşdikcə, Çin-Azərbaycan elmi mübadiləsi daha da intensivləşir və aktiv şəkildə inkişaf edir: "Azərbaycan Avropa və Asiya qitələrinin kəsişdiyi nöqtədə yerləşir, Qərb və Şərq sivilizasiyasının qovşağı hesab olunur. Keçən illər ərzində Azərbaycan irimiqyaslı beynəlxalq tədbirlərə ev sahibliyi etmiş, multikulturalizmin təbliğində, bəşər sivilizasiyanın inteqrasiyasında böyük səylər göstərmişdir. 2016-cı il Azərbaycanda "Multikulturalizm İli", 2017-ci il "İslam Həmrəyliyi İli" elan olunmuşdur".

Məqalədə mədəni əlaqələrin inkişafı üçün hər iki ölkənin elmi dairələrinin səylərinin vacibliyi vurğulanıb. Qeyd edilib ki, hazırda dövlətlərarası razılaşma əsasında təhsil və elm sahəsindəki müqavilələr uğurla həyata keçirilir. Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsi çərçivəsində artıq burada Çin Tədqiqatları Mərkəzi fəaliyyət göstərir. Bundan sonra təşkilatlanma daha da güclənəcək və tədqiqatçıların sayı artacaqdır. Hazırda Azərbaycanda iki Konfutsi İnstitutunun fəaliyyəti sayəsində qədim və zəngin Çin mədəniyyətinin öyrənilməsində və tanıdılmasında məqsədyönlü tədbirlər həyata keçirilir.

Bütün bunlar, dünya mətbuatında yer alan məqalələr bir daha göstərir ki, Azərbaycan dünya dövlətləri ilə müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrini genişləndirir və nüfuz sahibi olaraq qəbul edilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Nar" Xırdalanda yeni mağazasını təqdim etdi




Xırdalan şəhərindəki Heydər Əliyev prospekti 1A ünvanda yerləşən və yeni konseptə uyğun olaraq açılan "Nar" mağazası şəhər və ətraf ərazilərdə yaşayan müştərilərin rahatlığı və onlara göstərilən xidmət səviyyəsinin daha da yüksəldilməsi məqsədini daşıyır. Özünün müştəri yönümlülük və davamlı təkmilləşmə dəyərlərinə sadiq qalan mobil operator mağazada təqdim etdiyi müxtəlif təkliflərlə "Nar" istifadəçilərinə yüksəkkeyfiyyətli xidmət göstərir. Yeni mağazanın təqdimatı ilə əlaqədar olaraq, açılış günü "Nar" nömrələri 50%, satışa çıxarılıb, bütün smartfonlar isə 10% endirimlə mobil rabitə istifadəçilərinə təklif edilib. Əlavə olaraq, endirimli smartfon əldə etmiş hər bir müştəriyə "Nar" nömrə hədiyyə edilib.

Qeyd edək ki, hazırda ölkədə 4 "Nar" satış-xidmət mərkəzi və 76 "Nar" diler dükanı fəaliyyət göstərir. Mağazaların ünvanı və xidmətlər haqqında ətraflı məlumatı mobil operatorun rəsmi internet səhifəsindən öyrənmək olar: https://www.nar.az/pages/default/pageName=about_us_nar_points/

"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim etmişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.



**RÖVŞƏN**
rovsen.rasulov@mail.ru

## Əli Kərimlinin "alimliyi", yaxud "Şeytan TV"-yə əl çalan şərəfsizlik simvolu!

**AXCP** sədri Əli Kərimli Azərbaycanın Türkiyəyə 5 milyard dollar sərmayə qoyulmasından ciddi narahat olmağa başlayıb. Bundan əlavə, ölkəmizin 17 ədəd "Boeing" təyyarəsi alması faktı da bu siyasətbaz gədanın ciddi şəkildə təlaşlanmasına səbəb olub. Guya Azərbaycan hakimiyyəti bu pulları "xalqa xərcləməliymiş" (?!). Əslində, bu siyasətbaz gəda hələ də anlamır ki, qardaş Türkiyəyə qoyulan sərmayə bilavasitə Azərbaycan iqtisadiyyatının gücünün nəticəsidir və həmin sərmayə depozit şəklində yenidən ölkəmizə daha artıq məbləğlərdə geri dönərək, xalqımıza və ölkəmizə xərclənəcək! Bunu anlamaq üçün isə alim olmaq lazım deyil. Fəqət, Ə.Kərimli alimlik qalsın bir yana, heç alimlərin əlinə su tökməyə layiq olmayan bir adam kimi ortalığa düşüb, siyasi meymunluq göstərməkdədir. Yəni onda doğan bu narahatlıq və təlaşlanmalar heç də bu siysətbaz gədanın müxalifətçi olması anlamında deyil, tamamailə başqa istiqamətə yönəlib. O, Azərbaycanın Türkiyə də daxil olmaqla, müxtəlif beynəlxalq layihələrə yatırdığı sərmayələrin nəticə etibarı ilə dövlətin güclənməsində əhəmiyyətli rol alacağından qorxmağa başlayıb. BTQ və s. layihələr də daxil! Ona görə də, orda-burda ətrafındakı beş-on nəfərlik tulaları ilə könül bulandırmağa başlayıb. Qaldı ki, "Boeing" məsələsinə, AXCP sədri unutmamalıdır ki, onun ailəsi, eləcə də, xaricə göndərdiyi pulyığanları, məhz "AZAL"ın komfortabelli təyyarələri ilə xarici ölkələrə uçurlar və hər halda, onun özü də istəməz ki, məsələn, oğlu Türkel Kərimli xarici ölkələrdə erməni lobbisi ilə görüşüb pul almağa gedərkən, at, eşşək, öküz arabası və qazalaqları ilə getsin...Yox, əgər o, Azərbaycan dövlətinin ən müasir sərnişin təyyarələri almasını bəyənmirsə, həmin təyyarələrdə satqın və bişərəf oğlunun uçmağını istəmirsə, buyursun araba və qazalaqlarla xaricə göndərsin. Daha şit-şit "alimlikləri" ilə ətimizi tökməsin.

Bu arada Ə.Kərimliyə yaxınlığı ilə seçilən ŞEYTAN TV ("Meydan" TV) adlı erməniyə işləyən kanal da o yandan fəxrlə xəbər verir ki, bəs avropalı deputatlar Azərbaycan hakimiyyətindən qeyd-şərtsiz (?!) Əfqan Muxtarlının azadlığa buraxılmasını tələb edirlər. Birincisi, ŞEYTAN TV-nin erməniyə satılmış şəxsiyyətsizləri bu xəbəri ictimailəşdirməklə erməni saytlarından qətiyyən fərqlənəmirlər. İkincisi, nəyə görə XRİSTİAN KLUBUNUN üzvlərinə çevrilmiş avrodeputatlar qələt edib Azərbaycan hakimiyyəti ilə "qeyd-şərtsiz" dili ilə danışarkən, ŞEYTAN TV şəxsiyyətsizləri həmin deputatların az qala ayaqqabılarının iplərini də öz ağızları ilə bağlamağa hazır olduqlarını nümayiş etdirirlər? Üçüncüsü, niyə həmin avrodeputatlar hələ də işğal olunmuş ərazilərimizdə, dədə-baba torpaqlarında erməni əsirliyində girov saxlanılan Dilqəm və Şahbaz qardaşlarımızın qeyd-şərtsiz (!!!) azad olunmaları üçün Ermənistan hakimiyyəti qarşısında tələb qoymurlar?! Yaxud bu günə qədər Ermənistanda və Qarabağda yüzlərlə əsirlərimizin taleləri barədə hələ də məlumat yoxdur, avrodeputatlar bu məsələ ilə nəyə görə maraqlanmırlar? Yoxsa müsəlman ölkəsi olan Azərbaycana gələndə, onlara sərf etmir? Əfqan Muxtarlı açıq-aşkar dövlət maraqlarımızı əleyhinə fəaliyyət göstərib, üstəlik, erməni təşkilatları ilə sıx əlaqədə olub, buna görəmi onun taleyi avropalı deputatları narahat edir? Hər halda, avropalı deputatların Azərbaycanla "qeyd-şərtsiz" dilində danışmaq cəhdlərinin arxasında dayanan əsl reallıq da budur ki, ermənilərə söz deməmək, onlar qarşısında şərtlər irəli sürməmək bilavasitə, XRİSTİAN KLUBUNUN yazılmayan qanunları silsiləsindəndir. ŞEYTAN TV də bu cür xəbərləri bəh-bəhlə işıqlandırmaqla, əslində, ermənilərə və onlara dəstək olan avrodeputatlara nökərçilik edir, Ə.Kərimli kimi şərəfini pulaparaya satan isə özükimilərə çəpik çalmaqda davam edir. Etsin, görək nə vaxta qədər bunu edəcək...

# Mübariz Əhmədoğlu: “İspaniya presedenti Dağlıq Qarabağ tənzimlənməsi üçün yeni resurslar yaratdı”




***“İspaniyanın Kataloniyadakı müstəqillik referendumunun nəticələrinə qarşı atdığı addımlar Avropa və ABŞ tərəfindən dəstəkləndi”. Bu fikirləri Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu Dağlıq Qarabağın işğal olunması faktı ilə bağlı istər işğalçı rejimin, istərsə də separatçıların müvafiq beynəlxalq qurumlar və ölkələr tərəfindən haqlı təzyiqlərə məruz qalacağının mümkünlüyünü şərh edərkən deyib. Belə ki, politoloqa görə, ermənilərə qarşı daha öncədən ciddi təpkilər göstərilsəydi, münaqişənin həlli daha tez baş verərdi. Bu baxımdan, “cəza prizmasından Dağlıq Qarabağ problemini yaradan ermənilərin davranışı diqqəti daha çox cəlb edir”-deyə qeyd edən Mübariz Əhmədoğlu hesab edir ki, zamanında erməni cinayətkarlarına qarşı təpkilər və təzyiqlər olmalıydı. SİTAT: “Dağlıq Qarabağ cinayətkarları müəyyən qədər təpki görsəydilər, Dağlıq Qarabağ münaqişəsi çoxdan tənzimlənərdi”.***

### Cinayətkar Qarabağ klanı Dağlıq Qarabağda hərbi-polis rejimi quraraq, yerli erməniləri də girov saxlayır

“Dağlıq Qarabağ tənzimlənməsinin yeganə maneəsi Ermənistan və onun başında dayananan cinayətkarlardır”-deyə sözügedən rəyində bildirən politoloqa görə, Avropa separatçı cinayətkarlara qarşı mübarizənin məqbul yolunu göstərdi: “Ona görə Azərbaycan yaranmış reallıqda yol xəritəsi hazırlamalı və bu yol xəritəsi bir neçə istiqaməti əhatə edən elementləri birləşdirməlidir”.

Politoloq Mübariz Əhmədoğlu bunu bir neçə bölmə ilə əsaslandırıb:

**I.** Azərbaycan hakimiyyəti Dağlıq Qarabağda separatçı rejimin əvəzlənməsini reallaşdırmalıdır. Cinayətkar Qarabağ klanı Dağlıq Qarabağda hərbi-polis rejimi quraraq, yerli erməniləri də girov saxlayır.

**II.** Dağlıq Qarabağ separatçılarının liderlərinin Avropa məkanında hərəkətinə son qoyulmalıdır. Bəllidir ki, Ermənistan vətəndaşlığı altında Bako Saakyan hər il müxtəlif ölkələrə səfər edir, telemarafon keçirir və pul dilənir.

**III.** Avropanın bəzi siyasətçiləri və deputatları qohumluq, milli, dini və digər şəxsi maraqlar prizmasından Dağlıq Qarabağda cinayətkar separatizmi dəstəkləyirlər. Aİ-nin müvafiq strukturları onlarla maraqlanmalıdır.

**IV.** Ermənistan AİB-ə üzv qəbul edilərkən, Dağlıq Qarabağı tərkib hissəsi hesab etməyəcəyi və müstəqilliyini tanımayacağı barədə rəsmi öhdəlik götürüb. Aİ Ermənistanla Çərçivə Sazişinin mətninə analoji öhdəlik əlavə etməlidir.

**V.** ABŞ Dağlıq Qarabağın separatçı rejiminə maliyyə yardımlarını dayandırmalıdır.

Eyni zamanda, çox vacib istiqamət və faktorlardan biri olaraq, Rusiya istiqamətində də işlərin aparılması zəruriliyini qeyd edən Mübariz Əhmədoğlu hesab edir ki, Dağlıq Qarabağda Rusiyanın iştirakının siyasi və maddi əsasları var: “Maddi əsaslar aradan qaldırılarsa, bu siyasi əsaslara da təsir edəcək”.

**“Separatizmin cəzalandırılmasının davamı istiqamətində atılan addımlar, ilk növbədə ATƏT MQ ölkələri, Aİ məkanı və Rusiya üçün daha çox faydalıdır”**

“Rusiyadakı ermənilər Dağlıq Qarabağda hərbi təyinatlı geniş tikinti işləri və maliyyə layihələri reallaşdırırlar. Avtomaşınlar, müxtəlif hərbi texnikalar hədiyyə edirlər”-deyə qeyd edən siyasi şərhçi bildirir ki, bunun qarşısının alınması vacibdir: “Dağlıq Qarabağın istehlak etdiyi təbii qaz Rusiyadan gəlir. Rusiyanın təbii qazının Dağlıq Qarabağa axınının dayandırılması Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə ən ciddi töhfə ola bilər. “Qazprom”un (RF) Aİ məkanında müxtəlif layihələr reallaşdırmağına etirazlar bildirdiyi halda, Rusiya qazının Dağlıq Qarabağa nəqlinə laqeyd yanaşılır. Bu, Avropa və RF tərəfindən ikili standartların daha bir nümunəsidir”.

Politoloq onu da bildirir ki, Azərbaycan rəsmiləri bu parametrləri nəzərə alaraq, yol xəritəsi hazırlamalı və bu yol xəritəsini bütün dövlətlərə, xüsusilə, ATƏT MQ həmsədr ölkələrinə təqdim etməlidir: “Separatizmin cəzalandırılmasının davamı istiqamətində atılan addımlar, ilk növbədə, ATƏT MQ ölkələri, Aİ məkanı və Rusiya üçün daha çox faydalıdır”.

***Rövşən NURƏDDİNOĞLU***



# 2017-ci ilin yanvar-sentyabr aylarında Yasamal rayonu üzrə nəqliyyat, informasiya və rabitənin işi haqqında

Yasamal rayonunun sosial-iqtisadi göstəricilərinin formalaşmasında nəqliyyat sahəsi mühüm yer tutur. Yasamal rayonunda sənaye, tikinti, ticarət və digər sosial-iqtisadi sahələrin inkişafına mütənasib olaraq, nəqliyyat kompleksi də son illər ərzində əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Yük və sərnişin daşınması sahəsində nəqliyyata olan tələbat ciddi şəkildə artmış, köməkçi və əlavə nəqliyyat fəaliyyətinin genişlənməsi üçün əsaslı zəmin yaranmışdır. Bunun nəticəsində yol-nəqliyyat infrastrukturu, demək olar ki, yenidən qurulmuş, nəqliyyatın hərəkət heyəti, nəqliyyat vasitələri parkı ölkəyə gətirilmiş avtomobillərin və metro vaqonlarının hesabına genişləndirilmişdir.

Yasamal rayon Statistika Şöbəsindən verilən məlumata görə, 2017-ci ilin yanvar-sentyabr aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən 1822765,1 min manatlıq xidmətlər göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrünü 6 faiz üstələmişdir.

2017-ci ilin yanvar-avqust aylarında nəqliyyat müəssisələrində çalışanların orta siyahı sayı 1537 nəfər olmuşdur. Bu sahədə orta aylıq əmək haqqı keçən ilin müvafiq dövrünə nisbətən 6,1 faiz azalaraq, 1468,4 manat təşkil etmişdir.

Yasamal rayonunun sosial-iqtisadi həyatında mühüm rol oynayan aparıcı sahələrdən biri də rabitə sahəsidir. İqtisadiyyatın bütün sahələrində olduğu kimi, rabitə sektorunda da müəssisələrin fəaliyyəti üçün münbit şəraitin yaradılması, özəl sektorun inkişafı, davamlı investisiya qoyuluşu, habelə, informasiya və kommunikasiya texnologiyalarına tələbatın gündən-günə artması və rabitənin infrastukturunun genişlənməsi bu sahənin inkişaf səviyyəsinin digər sahələrlə müqayisədə daha yüksək olmasını şərtləndirmişdir. Mobil telefon, sürətli poçt-kuryer, internet və informasiya texnologiyalarının digər sahələri rabitə xidmətlərinin əsasını təşkil etməklə, sürətlə inkişaf edir.

2017-ci ilin yanvar-sentyar aylarında Yasamal rayonunda 142 rabitə müəssisəsi fəaliyyət göstərmiş və onların fəaliyyəti nəticəsində faktiki qiymətlərlə 468577,8 min manatlıq rabitə xidməti göstərilmişdir. Göstərilmiş rabitə xidmətlərinin 437616,8 min manatı rayon ərazisində fəaliyyət göstərən 127 qeyri-dövlət rabitə müəssisələri tərəfindən həyata keçirilmişdir.

2017-ci ilin yanvar-avqust aylarında rabitə müəssisələrində çalışanların orta siyahı sayı keçən ilin müvafiq dövrünə nisbətən 92 nəfər azalaraq, 4916 nəfər olmuşdur. Bu sahədə orta aylıq əmək haqqı keçən ilin müvafiq dövrünə nisbətən 14,5 faiz artaraq, 1317,6 manat təşkil etmişdir.

***Qismət İsmayılov***

# Politoloq: “Danışıqlar üçün əlverişli şərait yaranıb”

***“Həm bir neçə gün öncə Ermənistanın millətçi “Daşnaksütyun” partiyasının parlament fraksiyasının katibi Aqvan Vardanyanın, həm bu gün düşmən ölkə prezidenti Serj Sarkisyanın Moskvaya, həm də Rusiyanın XİN başçısı Sergey Lavrovun bu günlərdə İrəvana və Bakıya nəzərdə tutulan səfəri sırf Dağlıq Qarabağ probleminin həlli ilə bağlı məsələlərə həsr olunub.***

Bu səfərlər fərqli həll variantlarının müzakirəsi və onlar arasında kompromis axtarılmağa yönəlib”. Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. Politoloqun fikrincə, Sarkisyanın Moskvaya səfərinin digər səbəbi onun gələcək taleyi ilə



bağlıdır: “Bildiyiniz kimi Ermənistan prezidenti may ayına qədər vəzifəsini təhvil verməlidir. Belə olan halda, onun statusu qeyri-müəyyən olaraq qalır. Sarkisyanın baş nazir olmaq istəyinin baş tutacağı isə məlum deyil”.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiyalı həmkarı ilə görüşünə toxunan politoloq söyləyib ki, sözügedən görüş Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara stimul verib: “Prezidentlərin Soçidə baş tutan görüşü danışıqlar üçün əlverişli fon yaradıb. Lakin bu məsələdə Rusiyanın və Ermənistanın hansı mövqe tutacağı haqqında fikir söyləmək çətindir. Çünki, Ermənistan müəyyən güzəştlər haqqında danışsa da, onlar haqqında tam şəkildə açıqlama vermir. Hesab edirəm ki, yaxın vaxtlarda DQ münaqişəsinin həlli ilə bağlı danışıqların bütün təfərrüatları ilə tanış ola biləcəyik”.

# Qaçqın və məcburi köçkünlərin problemlərinin həlli dövlətin prioritet siyasətidir

***Qaçqın və məcburi köçkün həyatı yaşamaq, dünyada hər bir insanın ən məşəqqətli, ən amansız həyat hekayəsidir. Öz yurd-yuvasından didərgin düşmək, ən əziz insanlarını müharibələrdə, amansız döyüşlərdə itirmək, irqindən və milliyyətindən asılı olmayaraq, hər kəs üçün acı taledir. Bu gün Suriyadan, İraqdan, başqa neçə-neçə ölkədən didərgin düşüb Avropanın tikanlı məftillərlə əhatələnmiş sərhədlərində bir tikə çörəyə, suya möhtac olan minlərlə insanın acı taleyi və yaşadığımız bu günlərin acı mənzərəsidir.***



1988-ci ildən başlayaraq, erməni faşistlərinin amansız və qəddar siyasəti nəticəsində öz doğma yurd-yuvalarından qaçqın düşən 1 milyondan çox azərbaycanlının acınacaqlı taleyi də, tariximizə qara hərflərlə yazılmış bir alın yazısıdır. Yüzlərlə qadın və körpənin qaçqınlıq zamanı erməni faşistləri tərəfindən diri-diri yandırılaraq öldürülməsi, vəhşicəsinə qətlə yetirilməsi, erməni faşizminin əsl iç üzünü dünyaya göstərən, tarixdən silinməyəcək əsas faktlardandır. O zaman, qaçqın və məcburi köçkünlərin problemləri yenicə müstəqillik qazanan Azərbaycan üçün böyük problem idi.

Yeni müstəqillik tarixinin 25 ilini arxada qoyan Azərbaycan bu müddət ərzində uğurlu inkişaf yolu keçməyi bacarıb. Düzdür, ilk illərdə yaranan çətinliklər və o dönəmdə hakimiyyətdə olanların naşı siyasəti müstəqilliyin üzərindən Domokl qılıncı kimi asılmışdı və əldə edilən bu suverenlik itirilmək təhlükəsi ilə üz-üzə idi. Dağlıq Qarabağ münaqişəsi, bir milyondan artıq qaçqın və məcburi köçkün problemi vəziyyəti daha da ağırlaşdırırdı. Xüsusən də, yurd-yuvalarından didərgin düşənlər üçün bu dövr daha məşəqqətli idi. Amma Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi ilə vəziyyət kökündən dəyişdi və bunun real təcəssümünü məcburi köçkünlərin timsalında da aydın görmək olar. Qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması, problemlərinin öyrənilməsi və vaxtında həlli, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması daim dövlətin xüsusi diqqət mərkəzində saxlanıldı.

Doğma yurdlarından didərgin salınmış bir milyon nəfərədək soydaşımız Ulu Öndərin danılmaz fəaliyyəti nəticəsində dövlət qayğısı ilə əhatə olundu, onların üzləşdiyi sosial problemlər tədricən öz həllini tapmağa başladı. Ulu Öndər müxtəlif ölkələrin dövlət başçıları, rəsmi şəxsləri ilə keçirilən çoxsaylı görüşlərində, beynəlxalq və yerli qurumlarda etdiyi çıxışlarında mütləq qaçqın və məcburi köçkünlər məsələsinə toxunaraq, bunu ölkənin bir nömrəli problemi adlandırmışdır.

Məhz Heydər Əliyevin danılmaz fəaliyyəti sayəsində 1993-2004-cü illərdə ayrı-ayrı dövlətlər, maliyyə qurumları, beynəlxalq humanitar və inkişaf təşkilatları tərəfindən qaçqın, məcburi köçkün və aztəminatlı əhaliyə müxtəlif layihələr üzrə 640 milyon ABŞ dollarından çox həcmdə humanitar yardım göstərilmişdir.

Bir faktı xüsusi ilə diqqətə çatdırmaq lazımdır ki, Ulu Öndər Heydər Əliyev 1999-cu ildə BMT-nin Ümumdünya Ərzaq Proqramı Təşkilatının Baş Qərargahına müraciət edərək həmin qurumun Azərbaycanda fəaliyyət müddətinin müstəsna hal kimi 2005-ci ilin sonuna qədər uzadılmasına nail oldu.

2003-cü ildən Heydər Əliyev siyasi kursunu davam etdirməyə başlayan Prezident İlham Əliyev də bu istiqamətdə ardıcıl və məqsədyönlü işlər görüb. Ulu öndərin çadır düşərgələrinin ləğvi ideyası davam etdirilərək, mövcud olan 12 çadır düşərgəsinin 5-i 2003-cü ildə, 7-si isə sonrakı 4 ildə ləğv olunub. 2003-cü il prezident seçkiləri öncəsi "Azərbaycanda bir dənə də olsun çadır düşərgəsinin qalmayacağ"ına söz verən ölkə Prezidenti İlham Əliyev bu vədi 4 ildə yerinə yetirib. 24 dekabr 2007-ci il Azərbaycan tarixinə, həm də son çadır düşərgələrinin ləğvi kimi düşüb.

Ötən illərdə Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün də böyük imkanlar yaradıb, onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluğunun artırılması istiqamətində görülən işlərin miqyası daha da artıb. Prezident İlham Əliyevin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və sonradan həmin sənədə 31 oktyabr 2007-ci il, 21 fevral 2011-ci il tarixli sərəncamlarla təsdiq olunmuş əlavələrin icrasında uğurlu işlər görülüb. Dövlət indiyədək məcburi köçkünlərə, ümumilikdə 4,5 milyard dollarlıq vəsait xərcləyib. Bunun 2,6 milyardı dövlət büdcəsi, 1 milyardı Neft Fondunun vəsaiti, 900 milyonu beynəlxalq humanitar təşkilatların payına düşür. Dövlət Neft Fondunun hesabından ilk köçürmələr də, məhz qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilib. Bu vəsaitlə 67 qəsəbə salınıb, 100 min qaçqın və məcburi köçkün oraya köçürülüb.

Prezident İlham Əliyev Masazır qəsəbəsində 760 məcburi köçkün ailəsi üçün yeni salınmış məhəllənin açılış mərasimində deyib: "Görülən bütün bu işlər, bir daha onu göstərir ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu günə qədər 140 min məcburi köçkün yeni evlərə, mənzillərə köçürülmüşdür. Yəni bu, böyük bir işdir, elə bil ki, yeni böyük bir şəhər salınmışdır. Onu da bilməliyik ki, dünyada ən çox qaçqın-köçkünü olan ölkə Azərbaycandır. Azərbaycanın əhalisi artır. Ancaq, eyni zamanda, məcburi köçkünlərin də sayı artmaqdadır. 1992-ci ildə onların sayı bir milyon idi, indi isə artıq 1 milyon 100 min, bəlkə də 1 milyon 200 min məcburi köçkün vardır".

Diqqətə çatdırmaq lazımdır ki, son 13 ildə 400 mindən çox qaçqın və məcburi köçkün yeni iş yeri ilə təmin olunub. Hər bir qəsəbədə məktəblər, uşaq bağçaları salınıb. Ali və orta ixtisas təhsili ocaqlarında ödənişli formada təhsil alan qaçqın və məcburi köçkünlər təhsil haqqı ödəməkdən azad olunmuşlar. Bu gün də dövlət tərəfindən həyata keçirilən bir sıra proqramlar, özünüməşğulluq, regionlarda ictimai işlərə aid yerlərin açılması, məhz bu məqsədə, əhalimizin bu təbəqəsinin sosial problemlərinin həllinə yönəldilib və bir çox sosial problemlər öz həllini tapmaqdadır.

Bundan başqa, 1990-cı illərin əvvəlində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanda aparılan etnik təmizləmə, Azərbaycanın 20 faiz ərazisinin işğalı insanların öz doğma yurdlarından didərgin düşmələrinə səbəb olub və bu münaqişə hələ də öz həllini tapmayıb. Bu işğal nəticəsində yaşayış məskənləri, sosial infrastruktur, tarixi, mədəni abidələr, bir sözlə hər şey dağıdılıb, ölkə iqtisadiyyatına külli miqdarda - təxmini hesablamalara görə 500 milyard ABŞ dollarından çox həcmdə ziyan vurulub və insanlar hər şeylərini itiriblər. Sözsüz ki, ən böyük itki müharibədə həyatlarını itirmiş 30 min nəfərədək Azərbaycan vətəndaşıdır.

Bu fakt artıq bütün dünya ictimaiyyətinə məlumdur ki, Azərbaycan 20 ildən çox müddət ərzində təbii artım hesabına sayı bir milyon 200 mini keçən qaçqın və məcburi köçkünün əsas problemlərini həll edib, beynəlxalq hüquq normalarına hörmətlə yanaşıb, götürdüyü öhdəlikləri layiqincə yerinə yetirib. Dövlət Neft Fondunun vəsaiti hesabına müasir standartlara cavab verən 95 yaşayış qəsəbəsi salınıb, 50 min ailə 250 min nəfərdən çox qaçqın və məcburi köçkün yeni mənzillərlə təmin olunub. İndiyədək onların sosial problemlərinin həllinə təxminən 6 milyard ABŞ dolları həcmində vəsait xərclənib.

Ümumiyyətlə, Azərbaycan dövlətinin bu sahədə təcrübəsi - həm çadır şəhərciklərinin ləğvi, həm də demək olar ki, humanitar faciənin qarşısının alınması çox nadir bir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva yeni vəzifədə ilk iclası da bu həssas problemə həsr etdi. Daha sonra o, Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirdi. Birinci vitse-prezident Mehriban Əliyeva həmin müşavirədə çıxışında, bir daha diqqətə çatdırdı ki, qaçqınlara və məcburi köçkünlərə qayğı Azərbaycan dövlətinin fəaliyyətinin ən prioritet istiqamətlərindən biridir: "Gördüyümüz bu tədbimat, bir daha sübut edir ki, qaçqınlara və məcburi köçkünlərə qayğı Azərbaycan dövlətinin fəaliyyətinin ən prioritet istiqamətlərindən biridir. Müstəqilliyimiz bərpa olunandan sonra ən ağır dövrlərdə, ölkəmizin inkişafının bütün mərhələlərində bu sahəyə dövlət tərəfindən böyük qayğı göstərilib. Amma eyni zamanda, əfsuslar olsun ki, bu sahədə hələ də problemlər var. Ona görə bizim qarşımızda məqsəd durur ki, çox qısa zamanda bu problemləri aradan qaldıraq və yararsız vəziyyətdə olan bütün təhlükəli binalarda yaşayan soydaşlarımızı yeni mənzillərlə təmin edək."

Qaçqın və məcburi köçkünlərin Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasətin məntiqi nəticəsi olaraq, tezliklə öz doğma torpaqlarına qayıdacaqlarına, Azərbaycanın ərazi bütövlüyünün bərpa ediləcəyinə inamları daha da artıb. Doğma yurd-yuvalarından didərgin düşmüş insanlar üçün salınan qəsəbələr, tikilən evlər qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşmasına xidmət etsə də, onlar bu ünvanlarda müvəqqəti məskunlaşdıqlarını, tezliklə ata-baba torpaqlarına qayıdacaqlarını yaxşı bilirlər.Yurd nisgilinə son qoyulduqdan sonra da bu insanlar, hər zamankı kimi, dövlətlərinin onların arxasında olacağına tam əmindirlər. İşğal altındakı ərazilər azad olunduqdan sonra onlar bu yerlərdə dövlətin yardımı ilə daha təmtəraqlı, yüksək şəraiti olan evlər inşa olunacağını yaxşı bilirlər. Prezident İlham Əliyev bununla bağlı bildirmişdir: "Bizim torpaqlarımız azad olunandan sonra biz həmin torpaqlarda bundan da gözəl binalar tikəcəyik. Bütün şəhərləri bərpa edəcəyik və öz vətəndaşlarımızı doğma torpaqlara qaytaracağıq. O gün gələcək, mən buna inanıram, şübhə etmirəm. Əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir". Məcburi köçkünlər yaxşı bilirlər ki, dövlət başçısının uğurla reallaşdırdığı siyasət nəticəsində Ermənistan diplomatik sferada tam məğlubiyyətə uğrayıb, işğal altında olan ərazilərdən düşməni hər an geriyə atmağa qadir olan qüdrətli Azərbaycan Ordusu yaradılıb. Azərbaycan Prezidentinin ətrafında daha sıx birləşən qaçqın və məcburi köçkünlərin özləri də zəbt olunmuş doğma torpaqlarının azad edilməsi üçün Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hazırdırlar.

***Məzahir AŞİROV***

***"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün"***

# Rəsul Quliyev Əli Kərimlidən ağıllı olmağa çalışır



***Müxalifətdaxili intriqaların hər ötən günə nisbətən bir qədər də genişlənməsi, o qənaəti yaradır ki, yaxın vaxtlarda daha bir neçə partiya sıradan çıxacaq və ya hansısa partiyaya transfer olunacaqlar. Baxmayaraq ki, iddialı görünən, əslində isə, zəif və acınacaqlı durumda olan Müsavat və AXCP kimi partiya funksionerləri 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə təşkilatlanmış formada getdiklərini iddia edirlər. Hətta AXCP sədri Əli Kərimli və Müsavatın keçmiş başqanı İsa Qəmbər prezident seçkilərində iştirak etmək niyyətlərində olduqlarını bildirirlər. Ancaq reallıq ondan ibarətdir ki, onların sosial bazaları sıfır həddindədir. Bu baxımdan, onların cüzi səs toplamaları belə mümkünsüzdür. Görünür, bu amili nəzərə alan "Gələcək Azərbaycan Partiyası"nın lideri Rəsul Quliyev prezident seçkilərində iştirak etmək üçün Azərbaycana gələcəyini bildirir.***

Onun Bakıdakı nümayəndəsi A.Şakiroğlu "GAP"-ın namizədi olacaq R.Quliyevin İ.Qəmbər və Ə.Kərimlidən daha şanslı olduğunu bildirir. Sözçü R.Quliyevin şansının və imkanının nədən ibarət olduğunu açıqlamasa da, görünən odur ki, deyilən fikirlər populistliyə əsaslanan boş və mənasız sözdən başqa bir şey deyil. Çünki R.Quliyev ABŞ-da oturub ağlına deyil, ağzına gələni danışmaqdan başqa, heç bir işə yaramayıb. Dəfələrlə Azərbaycan mətbuatının diqqətini cəlb etmək üçün yalnız ağılsız ideyalarla çıxış edib. Müəyyən hallarda opponentlərini hədəfə alaraq, onlara qarşı müəyyən ittihamlar irəli sürüb. "Beşi birə, biri də heçə dəymədiyi" kimi R.Quliyev qarışıq İ.Qəmbər, Ə.Kərimli və digərləri də heç bir işə və Azərbaycanda nəzəri-diqqəti cəlb edə biləcək bir gücə malik deyillər.

### Müxalif düşərgə avaraların yığıncağına çevrilir

Faktlara əsaslanaraq, demək olar ki, dəfələrlə "Milli Şura" və Müsavat mitinqlər keçirməyə cəhdlər göstəriblər. Ancaq bu aksiyalar uğursuzluqla nəticələnib. Çünki keçirilən mitinqlərdə təşkilatçıların qohum-əqrəbalarından və dostlarından başqa, kimsə iştirak etməyib. Çıxışlar da əvvəlki boş və mənasız dezinformasiya xarakterli fikirlərin təkrarı olub. Ə.Kərimli, Gültəkin Hacıbəyli və Cəmil Həsənli aşığın sözü bitdikdə, dalay-dalay edən kimi, başlayırlar qeybət xarakterli fikirlər səsləndirməyə. "Milli Şura"nın sonuncu mitinqində isə C.Həsənli, ümumiyyətlə iştirak etməkdən imtina etdi. Yalanmı-gerçəkmi mətbuatda belə bir informasiya verildi ki, güya C.Həsənli ABŞ-a səfərə gedib. Ə.Kərimli mitinq uğursuzluğunun qarşısını almaq üçün növbəti aksiyanın keçirilməsindən imtina etdi. Bununla da, bir daha özlərini rüsvay etdilər. Müsavat partiyası da əvvəl mitinq, daha sonra isə yürüş keçirməyə cəhdlər etsə də, bu cəhdlər nəticəsiz qaldı. Çarəsizlikdən piket keçirməyi planlaşdırdılar ki, bu da son dərəcə mətbuatda gülüş hədəfinə çevrilən aksiya kimi qeyd olundu.

Müxalifətdaxili acınacaqlı proseslərdən sonra, bu qənaətə gəlmək olar ki, müxalifət partiyaları 15 il əvvəl hansı durumda idilərsə, bu gün də eyni vəziyyətdədilər. Yeni liderlərin əyin-başları düzəlsə də, daxili aləmləri və fəaliyyət istiqamətləri 15 il əvvəlki kimi olaraq qalmaqdadır. Bu vəziyyətdən istifadə edib, yuxarıda qeyd etdiyimiz kimi, R.Quliyevin önə çıxmaq cəhdlərinin nəticəsiz qalacağı şübhəsizdir. Çünki R.Quliyevin Azərbaycana gəlib, namizədliyini irəli sürmək iradəsi mövcud deyil. Millət vəkili Elşən Musayev bunun səbəbini R.Quliyevin qorxaqlığı ilə əlaqələndirir. Onun sözlərinə görə, 2005-ci ildə də R.Quliyev Bakıya gəlməyə cəhd etdi, ancaq qorxaqlığı və iradəsizliyi ona Azərbaycana gəlməyə imkan vermədi.

Nəticə olaraq, onu vurğulamaq lazımdır ki, dovşan və ya tülkü iddialı görünə bilər, amma onların cəsarətli olmaları mümkün deyil. Çünki ürəkləri şir, pələng deyil, dovşan ürəyidir. Müxalifət liderləri də hansısa xarici maraqlı qüvvələrə və onların maliyyə yardımlarına arxalanıb, populist çıxışlar edə bilərlər. İddialı tələblərlə də çıxış etmələri mümkündür. Ancaq iddialarını və planlarını reallaşdırmaları qeyri-mümkündür. Çünki müxalifət liderlərinin rəhbərlik etdikləri partiyalar daxilində nüfuzları olmadığı üçün, cəmiyyət tərəfindən də dəstəklənmirlər.

***İ.ƏLİYEV***

## Narkotik vasitələrin kultivasiyası ilə məşğul olan şəxslər polis əməkdaşları tərəfindən saxlanılıb

Respublikanın daxili işlər orqanları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində növbəti əməliyyat tədbiri uğurla nəticələnib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, noyabrın 13-də Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən yarım kiloqrama yaxın narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb, xeyli sayda yaşıl kütlə halında narkotik tərkibli bitkilər aşkarlanaraq məhv edilib.

Belə ki, 42-ci polis bölməsinin əməkdaşları daxil olan məlumat əsasında noyabrın 14-də Nardaran qəsəbəsinin Ləhiş bağlar massivində Mərdan Əliyevin yaşadığı evin həyətyanı sahəsinə baxış keçiriblər. Bu zaman oradakı yardımçı otaqdan xüsusi kultivasiya olunmuş, ümumi çəkisi 18 kiloqrama yaxın olan 85 çətənə kolu, 285 çətənə toxumu və 450 qram qurudulmuş marixuana aşkarlanaraq götürülüb. Faktla bağlı Sabunçu Rayon Polis İdarəsinin istintaq şöbəsində araşdırma aparılır.

## Avtomobil oğurluqlarının üstü "isti izlər"lə açılıb

Ötən gün respublikanın ərazi polis orqanları tərəfindən qeydə alınan avtomobil qaçırmaları faktlarının üstü "isti izlər"lə açılıb və bu əməlləri törədənlər məsuliyyətə cəlb ediliblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 14-də saat 2.00 radələrində Ağstafa rayonunun Köçəsgər kəndindən sakin Mikayıl Nəsirova məxsus "VAZ-2106" markalı avtomobilin qaçırılması barədə rayon polis şöbəsinə məlumat daxil olub. Dərhal başlanan əməliyyat-axtarış tədbirləri nəticəsində avtomobil saat 4.00 radələrində tapılıb. Onu oğurlamaqda şübhəli bilinən Tovuz rayon sakinləri Fərid Məmmədzadə, Rəşadət Fəttahov və əvvəllər məhkum olunmuş Ağalar Səfərov tutulublar.

Noyabrın 14-də saat 7.00 radələrində Zaqatala rayonunun Yuxarı Tala kəndindən sakin Rövşən Mehdiyevə məxsus "QAZ-31029" avtomobilin qaçırılması barədə rayon polis şöbəsinə daxil olan məlumatla əlaqədar dərhal müvafiq tədbirlərə başlanılıb. Oğurlanan maşının Qax rayonu istiqamətində hərəkətdə olduğu müəyyənləşdirilib. Zaqatala və Qax rayon polis şöbələrinin əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə avtomobil Qax rayonunun Əmircan kəndində tapılıb. Nəqliyyat vasitəsini oğurlamaqda şübhəli bilinən Zaqatala şəhər sakini Rüstəm Əlizadə tutulub. Xəzər Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində isə noyabrın 13-də Bakı şəhər sakini Namiq Ağayevə məxsus "VAZ-2106" markalı avtomobili qaçırmaqda şübhəli bilinən üç yeniyetmə saxlanılıb. Noyabrın 12-də paytaxt sakini Vüsal Rəhimova məxsus "Ford" markalı avtomobili oğurlamaqda şübhəli bilinən Cəmil Səfərəliyev Binəqədi Rayon Polis İdarəsinin 5-ci polis bölməsinin əməkdaşları tərəfindən tutulub. Onun noyabrın 3-də Əsəd Vəliyevə məxsus "Ford" markalı avtomobili qaçırması da müəyyənləşdirilib. Göstərilən faktlarla bağlı müvafiq araşdırmalar aparılır.

# Ölkə ərazisində sabit hava şəraiti davam edəcək

Ölkə ərazisində noyabrın 16-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 9-11°, gündüz 15-18° isti, Bakıda gecə 9-11°, gündüz 15-17° isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan yuxarı - 766 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin axşam bəzi şərq rayonlarında çiskinli yağış yağacağı ehtimalı var. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 15-19° isti, dağlarda gecə 1-6°, gündüz 8-13° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 15-20° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 8-13° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 14-18° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Lakin axşam ayrı-ayrı yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 12-17° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacağı gözlənilir.



Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 15-19° isti olacağı gözlənilir. Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Lakin axşam ayrı-ayrı yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-13°, gündüz 16-19° isti, dağlarda gecə 3-8°, gündüz 10-15° isti olacağı gözlənilir.

# Azərbaycanda xalq bayramları: Qurban bayramı

***Azərbaycan xalq bayramlarından biri də islam dini ilə bağlı Qurban bayramıdır. Ulu Öndər Heydər Əliyev Qurban bayramı haqqında deyirdi: "Qurban bayramı dostluq bayramı, məhəbbət, birlik və mehribanlıq bayramıdır".***

Sovet dövründə ateizm siyasəti yeridildiyinə görə Qurban bayramı gizli şəkildə keçirilirdi. Tədqiqatçı-etnoqraf Tofiq Babayev yazır: "Bununla belə, Azərbaycan xalqı ötən əsrlərin bütün ağır sınaqları içərisində milli adət-ənənələrini və bayramlarını qoruyub-saxlaya bilmişdir. Hər bir müsəlman gəlişini böyük sevinclə qarşıladığı Qurban və Orucluq bayramlarını müqəddəs borcunu layiqincə yerinə yetirməkdən doğan daxili rahatlıq hissi ilə öz evində, ailəsində, gizli olsa da, qeyd etmişdir.

XXI əsrin əvvəlində cəmiyyətdə baş verən köklü dəyişikliklər nəticəsində, Qurban bayramı da, Orucluq bayramı da əsl ümumxalq bayramları sırasına daxil olmuş, bayram günləri qeyri-iş günü elan olunmuşdur.

Sosial-mənəvi həyatımızın tərkib hissəsinə çevrilmiş bayramlardan biri Qurban bayramıdır. Qurbanlıq heyvanın kəsildiyi bu bayrama ərəbcə "Eyd əl-əzha" və ya "Eyd əl-kəbir" deyilir. Qurani-Şərifdə "eyd" kəlamı yalnız bircə dəfə işlədilmişdir və "təkrar olunan sevinc", "bayram" mənası daşıyır. Bu mənə "mübarək" "möminlərin qəlbinə sevinc" gətirən Qurban bayramı gününə də aid edilir.

Qurban bayramı müsəlman hicri-qəməri (hicri-ay) təqvimi ilə 12-ci ayda - Zülhiccə ayının 10-da başlanır və bir ay müddətində davam edir. Müsəlmanlar bu təqvimə Məhəmməd peyğəmbərin və Onun tərəfdarlarının - mühacirlərin 622-ci ilin sentyabrında Məkkədən Mədinəyə köçməsindən sonra keçmiş və təqvimi Məhərrəm ayı ilə başlamışlar. Orucluq və Qurban bayramları Ay-Qəməri təqviminə əsasən keçirildiyindən, hər il on-on iki gün geri çəkilir və beləliklə, bütün fəsilləri, ayları dolaşırlar. Zülhiccə, adından da göründüyü kimi, həcc ayıdır. Qurbankəsmə isə həcc ibadətlərinə daxil edilmişdir".

"İslamda Qurban bayramı İbrahim peyğəmbərin adı ilə bağlıdır. Qurani-Kərimdən məlum olur ki, o, Allaha olan sədaqətini sübut etmək üçün oğlu İsmayılı qurban vermək istəyir; bu zaman Allah Cəbrayıl vasitəsilə iki qoç göndərərək, oğlunun yerinə onları kəsməyi İbrahimə əmr edir. Məhz buna görə, bu qurbana "İsmayıl qurbanı", "İsmayıl bayramı" da deyilir.

İslam dininin bu tarixi ayinə mütərəqqi xidməti ondan ibarətdir ki, onu ümumxalq müsəlman bayramı səviyyəsinə qaldırmışdır. Lakin qurban kəsərkən, əsas qayə qan tökmək və ya ət yemək deyildir. Əsas məqsəd qurban kəsərkən, həcc ibadəti sayəsində müsəlmanın şeytana və öz nəfsinə qalib gələrək, onları öldürməsi və cəhənnəm əzabından xilas olmasıdır. Qurbanın kəsilməsi İbrahim peyğəmbərdən qalmış Allaha xilaskarlıq ibadətinə əməl edilməsi deməkdir.

Bu müqəddəs bayram hazırda Azərbaycanda da ümumxalq bayramı kimi qeyd olunur və bayram günü qeyri-iş günü elan edilmişdir. Qurban bayramı günü imkanı olan hər bir müsəlman qurban kəsmılidir. Ənənəyə görə, qurbanlıq qoyun, keçi, dana və dəvədən ibarət ola bilər. Qurbanlıq dəvədirsə - beşillik, danadırsa - ikiillik, qoyun və keçidirsə - birillik, yaxud bu yaşlara yaxın olmalıdır. Dəvə və ya dananı yeddi ailə birləşib, qurban kəsə bilər.

Etnoqrafik materiallardan aydın olur ki, qurban kəsiləcək heyvanı xarici əlamətlərinə görə başqalarından fərqləndirir, bayram ovqatı yaradılır, onun boğazından gözmuncuğu, bəzək elementi kimi rəngbərəng sap və ya ipdən hörülmüş qotaz asır, qoçun və ya qoyunun belinin ortasında qırxım vaxtı bir çəngə yun saxlayır (buna xalq arasında kəkil deyirlər), belinə xına yaxır və rəng vururlar. Maraqlıdır ki, heç kəs, hətta oğrular belə bu cür heyvana toxunmazdılar, onu oğurlamazdılar. İnama görə, əks halda onlar Allahın qəzəbinə düçar olacaqlar.

Tədqiqatçılar yuxarıda sadalanan əlamətləri insanların Qurani-Kərimin müvafiq ayəsinə istinadən qurbanlıq heyvanlara vurduqlarını düşünürlər. Belə ki, "əl-Maidə" surəsinin 2-ci ayəsində buyurulur: "Ey iman gətirənlər! Allahın müəyyən etdiyi mərasimə, haram aya, qurbanlara, boyunlarına nişan taxılmış qurbanlıq heyvanlara, həmçinin, Rəbbinin lütfünü və razılığını diləyərək, Beytülharama üz tutub, gələnlərə hörmətsizlik etməyin!"

Adətə görə, Qurban bayramında da nişanlı qızların adına oğlan evindən alınna, ayaqlarına xına (həna) qoyulmuş və boynuna qırmızı parça bağlanmış, zınqırov asılmış qurbanlıq qoyun gedir, sevinc payı yola salınır. Digər bayramlarda olduğu kimi, bu bayramda da oğlan evindən qız evinə hədiyyələr və bəzəkli xonçalar göndərilir. Qurban bayramına böyük önəm vermiş Ulu Öndər Heydər Əliyev deyirdi: "Mübarək Qurban bayramı, adətən, insanlar arasında umu-küsülərin, kin-küdurətin aradan qaldırılması, yaxınların yad olunması, cəmiyyətdə mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün ən gözəl münasibət olmuşdur".

Qurbanlıq adətinin özünəməxsus cəhətləri vardır. Qurbanlıq üçün heyvanın seçilib əvvəlcədən bəslənilməsini və bəzədilməsini Hüseynqulu Sarabski də xüsusi vurğulayır: "Qurban ayına bir-iki həftə qalmış qoyun alıb həyətə buraxardılar. Bayram günü bəslənib yemlənmiş, kökəlmiş qoyunu həyətə çıxarıb, gözünə sürmə çəkər, sulayıb ağzına bir parça qənd verərdilər. Qurban duasını oxuduqdan sonra qoyunu kəsərdilər".

Qurban adətlərinə görə, kəsiləcək heyvan sağlam, gümrah və əzaları təndürüst olmalıdır. Kor, şikəst, xəstə, üstündə eybi olan (axtalanmış, buynuzu sınıq, quyruğu kəsik, dişi yox və arıq) heyvanı qurban kəsmək olmaz. Xalq arasında qara qoyunun əti daha yüksək qiymətləndirildiyindən, çox vaxt qurbanlıq üçün kəsiləcək erkəyin qara və çəkil (ayaqlarında və başında ağ ləkələr) olmasına da xüsusi diqqət verilir. Qurbanın kəsilməsi zamanı müəyyən qaydalara əməl olunur. Heyvan kəsilərkən bədənində qan qalmamalı və axıb təmizlənməlidir. Tökülən qanın altına bir qab tutulur və həmin qab sonra torpağa basdırılır.

Xalq etiqadına görə, qurbanı kəsərkən bıçağın ağzına Qurani-Kərimdən götürülmüş xüsusi bir ayin oxutdururlar: "Mən Tovhidi iqrar edən müsəlman kimi üzümü göyləri və yeri yoxdan vücuda gətirənə tuturam ki, mən müşriklərdən deyiləm. Həqiqətən, namazlarım da, ibadətlərim də, diriliyim də, ölümüm də aləmlərin Rəbbi Allahındır. Onun şəriki yoxdur. Bu mənə əmr edilib və mən özünü Allaha təslim edənlərdənəm. Ya Allah, bu, Səndəndir və Sənədir. Allahın adıyla və Allah böyükdür. İlahi, məndən bu qurbanı qəbul eylə".

Qurban kəsərkən niyyət tutanlar belə deyirlər: "Bismillah, bu qurbanı kəsirəm, qürbətən iləllah", yəni bu qurbanı Allahın adı ilə, Allaha yaxınlıq və Allahın buyurduqlarına əməl etmək üçün kəsirəm. Qurbanlıq heyvan üzü qibləyə (Məkkədəki müqəddəs Kəbənin səmti) tərəf kəsilir. Bu isə xalqın Yaradana, ulu Tanrıya böyük məhəbbətindən və sədaqətindən irəli gəlir. Üzü qibləyə kəsilməmiş heyvanın əti haram hesab olunur. Şəriət qanunlarına əməl edən adamın heyvan kəsməsi məqbul sayılır. Üzü qibləyə və Allahın adını zikr etməklə kəsilmiş heyvanın ətini yemək və paylamaq olar. Bu barədə Qurani-Kərimdə deyilir: "...Ətindən özünüz də yeyin, (yanınızda olub utandığından) əl açmayana (lakin verilənə etiraz etməyənə) və dilənçiyə də yedirdin. Onları (qurbanlıq heyvanları) sizə belə ram etdik ki, şükür edəsiniz bəlkə (nemətimizə)". (Qurani-Kərim, əl-Bəqərə 22, Həcc, 36).

H.Sarabskinin yazdığına görə, vaxtilə Abşeron kəndlərində, xüsusilə, Bakıda "qurban tikəsinin müqabilində" "ət payı" alınarmış. Qurbanlıq ət, "Qurban tikəsi" adətə görə, təmənnasız olaraq yeddi qapıya paylanır ki, imkanı olmayanlar da, o günü bir tikə ət yesinlər. Belə pay, adətən, daha çox fəqir-füqəraya, yoxsullara və əlsiz-ayaqsızlara verilir. Qurbanlıq ətdən qismən də ailənin bayram süfrəsi üçün işlədirlər. Məhəmməd Peyğəmbərin (s) bir hədisində buyurulur: "İldə bir neçə dəfə rahat yatıram. Onlardan biri də Qurban bayramı günüdür. Bilirəm ki, ümmətimdən elə bir adam tapılmaz ki, həmin gün qurbanlıq ətindən faydalanmasın".

İnama görə, keçmişlərdə bir sıra xüsusi ayinlərin icrasından sonra qurbanlıq heyvanın sümüklərini yığıb bir qaba qoyar və müqəddəs sayılan ağacdan asardılar. Anadoluda Qurban bayramında qurban kəsilən heyvanın sümükləri təmiz bir yerdə əkin əkiləcək vaxta qədər saxlanılardı. Həmin sümüklər birinci əkin vaxtı tarlaya səpilərdi. Beləcə, o ili həmin tarlanın əkininin bərəkətli və məhsulunun bol olacağına inanırdılar.

Xalq etiqadına görə, qurban verilən heyvanın sümüklərini qırmaz və köpəklərə verməzdilər, odda yandırıb torpağa basdırardılar. Bəzi bölgələrdə, xüsusilə, Dərbənd azərbaycanlıları Qurban sümüyünü atmaz və qurudub saxlardılar. Bərk külək əsib, kəsmək bilməyəndə həmin sümüyü yandırıb, külünü atardılar evin damına. İnama görə bundan sonra külək kəsməli idi. Qurban bayramı günlərində qocalara və kimsəsizlərə mərhəmət göstərir, xeyriyyə süfrəsi açır, şəfqət işləri görür və bunu böyük savab sayırlar. Qurban bayramının keçirilməsi haqqında 1623-1624-cü illərdə Azərbaycanda olmuş rus taciri F.Kotovun müşahidələri böyük maraq doğurur. Həmin bayramın iştirakçısı olan tacir yazır: "Qurban ediləcək dəveni bəzəyib, bir neçə gün küçələrdə və bazarda gəzdirir... şəhər meydanına gətirirlər... Dəveni qurban yerinə gətirdikdə, şah da müşayiətçiləri ilə meydana gəlir və qurbana yaxınlaşır. Darğa bəzədilmiş nizəni şaha verir. Şah nizəni dəvenin döşünə sancıb geri çəkilir. Qəssablar dərhal dəvenin başını kəsib parçalayırlar. Şəriət qanunlarına görə, dəvenin başını kəsməzlər, onu ayaq üstə üzü qibləyə saxlayıb iti və uzun bir alətlə - xəncər, nizə ilə döş nahiyəsindən içəri sancıb, yerə yıxırlar. Buna nəhr deyilir. Hər tərəf bəzədilir və çıraqban edilir. Həmin gün şənlik edilir və çalıb-oynayırdılar".

Azərbaycanlılar Qurban bayramı gününü xeyir və bərəkət günü, səadət, dinclik, sevinc və şadlıq bayramı kimi qeyd edirlər. Bayram günləri evlər təmizlənir, bəzədilir, dadlı-tamlı yeməklər bişirilir, ən gözəl paltarlar geyilir, dostlar və qohum-əqrəba bir-birinin evinə qonaq gedirlər. Bu müqəddəs bayram günlərində bir-birini təbrik edirlər, alqışlara üz tuturlar: "Bayramınız mübarək! Allah qurbanınızı qəbul etsin!" - deyirlər. Bayram mərasiminə xüsusi ibadət və əzizlərin məzarlarının ziyarət edilməsi də daxildir.

Azərbaycanda qurbankəsmə ayini qədimdən olmuşdur. Arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş bəzi maddi mədəniyyət abidələri burada hələ eramızdan xeyli əvvəl qurbankəsmə adətinin icra edildiyini göstərir. Qobustanda qurban kəsilən müqəddəs qurbangahlar aşkar olunmuşdur.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

## *Portağal şirəsi nadir xüsusiyyətlərə malikdir*

Əgər insan hər gün iki stəkan portağal şirəsi içərsə, onun sümüklərinin sınması riski iki dəfə azala bilər. Çinin Çjençjou şəhərindəki universitetdə 10 min nəfərin iştirakı ilə aparılan tədqiqatların nəticəsi göstərib ki, bu şirə sümükləri möhkəmləndirərək sınmadan qoruyur. Bütün "sirr" isə pomidor, çiyələk, kivi və brokkol kələminin tərkibində bol olan C vitamini ilə bağlıdır.



AZƏRTAC "Meddaily" saytına istinadən xəbər verir ki, tədqiqatlar çərçivəsində müşahidə olunub ki, C vitaminindən çox istifadə edən insanlar sınma ilə az qarşılaşıblar. Bu kəşf osteoporozdan əziyyət çəkən yaşlı insanlar üçün daha aktualdır. C vitamini cavan sümük hüceyrələrini (osteoblast) stimullaşdırır, nəticədə onlar yaşlı sümük hüceyrələrinə çevrilir.

Hər gün 50 milliqram C vitamin (orta ölçülü stəkanın dörddəbiri qədər şirə) qəbul edilməsi sümüklərin sınma riskini 5 faiz aşağı salır. Deməli, 1 stəkan şirə qəbul edilməsi həmin riski təxminən 20 faiz, 2 stəkan şirə isə 40 faiz azaldır. Həkimlər qeyd edirlər ki, orqanizm C vitaminini saxlamadığından onun hər gün qida ilə birgə qəbul edilməsi vacibdir. Bundan başqa, portağal, həmçinin qreypfrut və limon da tərkibindəki limon turşusunun hesabına demensiya riskini təxminən dörddəbirə qədər azaldır. Sübut olunub ki, bu turşunun tərkibində olan flavonoid nobiletin maddəsi yaddaşın itirilməsi prosesini ləngidir və hətta bu prosesi aradan qaldırır.

## *İtaliya millisinin uğursuzluğu 1 milyard dollar ziyana səbəb olub*



İtaliya millisinin DÇ-2018-in final mərhələsində çıxış edə bilməməsinin əks-sədaları davam edir. Apasport.az saytının "Goal.com"a istinadən məlumatına görə, "Skuadra-Adzurra"nın bu fiaskosu ölkə iqtisadiyyatına da mənfi təsir edib. Bu barədə İtaliya Milli Olimpiya Komitəsinin keçmiş prezidenti Franko Karraro açıqlama verib. O, ölkə iqtisadiyyatının bu uğursuzluğa görə 1 milyard dollar ziyana düşdüyünü deyib. Qeyd edək ki, DÇ-2018-in seçmə mərhələsinin pley-offunda İsveçlə qarşılaşan İtaliya millisi (0:1, 0:0) 60 ildən sonra ilk dəfə mundialdan kənarda qalıb.

## *Ukrayna və Belarus opera ulduzları Bakıda çıxış edəcək*

Dekabrın 2-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Jorj Bizenin "Karmen" operası növbəti dəfə nümayiş olunacaq. Bu dəfə operasevərlər Karmen partiyasını belaruslu vokal ulduzu Oksana Volkovanın ifasında seyr edəcək.

Teatrdan AZƏRTAC-a bildirilib ki, səhnə əsərində, həmçinin Ukrayna Milli Operasının solisti, Xalq Artisti, vokalçıların beynəlxalq müsabiqələrinin laureatı Andrey Romanenko, habelə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solistləri - Xalq Artisti Əli Əsgərov, Əməkdar artistlər İnarə Babayeva, Cahangir Qurbanov, Gülnaz İsmayılova, Əliəhməd İbrahimov, solistlərdən Nina Makarova və Tural Ağasıyev çıxış edəcək. Operanı Əməkdar Artist, beynəlxalq müsabiqələr laureatı Əyyub Quliyev idarə edəcək.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə sosial psixoloji xidmət ixtisası üzrə I kurs tələbəsi Məmmədova Səbinə Yaşar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Danimarka millisi dünya çempionatına vəsiqəni 5 qolla təmin edib



Gələn il Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatına Avropa zonasından sonuncu vəsiqənin sahibi Danimarka milli komandası olub. AZƏRTAC xəbər verir ki, danimarkalılar doğma meydandakı qolsuz heç-heçədən sonra Dublindəki "Aviva" stadionunda ev sahibi İrlandiya yığmasını darmadağın ediblər - 5:1.

Oyunda hesabı irlandiyalılar açıblar. Matçın 6-cı dəqiqəsində Şeyn Dafi adını tabloya yazdırıb. Lakin bu qoldan sonra təşəbbüsə tam yiyələnən Danimarka yığması 29-cu dəqiqədə Andreas Kristensenin qolu ilə oyunda tarazlığı bərpa edib. Bundan sonra danimarkalıların heyətində Kristian Eriksen het-trik edərək (32, 63, 74) komandasının qələbəsini təmin edib. Matçın 90-cı dəqiqəsində isə Niklas Bendtner İrlandiya yığmasının qapısına təyin edilən 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirərək komandasının dünya çempionatında iştirakını rəsmiləşdirib - 5:1. Beləliklə, ümumi hesabda 5:1 hesabı ilə qalib gələn Danimarka yığma komandası Rusiyada keçiriləcək dünya çempionatında iştirak hüququ qazanıb.



# Levandovski ən yaxşı məhsuldar futbolçu seçilib

Polşa millisinin hücumçusu Robert Levandovski dünya çempionatının Avropa üzrə seçmə mərhələsinin ən yaxşı məhsuldar futbolçusu seçilib. UEFA-nın saytında yer alan xəbərə görə, "Bavariya"nın forvardı rekord sayda - 16 qol vurub. Polşalı futbolçu 15 qol vuran Portuqaliya millisinin hücumçusu Kriştianu Ronaldu, belçikalı Romelu Lukaku və danimarkalı Kristian Erikseni (hər ikisi 11 qol) qabaqlayıb.

# Dik Advokat Niderland millisindən ayrılır



Futbol üzrə Niderland millisinin baş məşqçisi Dik Advokat komandadan ayrılır. 70 yaşlı mütəxəssis baş məşqçi postundan gedəcəyini Rumıniya ilə yoxlama oyunundan sonra açıqlayıb. "Dekabrın 1-də Niderland Kral Futbol İttifaqı ilə müqaviləm başa çatır. Müqaviləni yeniləməyi düşünmürəm. Getməyim daha məqsədəuyğundur. Artıq nəsil dəyişib və meydan gənclərindir", - deyə mütəxəssis bildirib.

Buxarestdəki "Naçional" stadionunda Rumıniya ilə yoxlama oyununda Niderland millisi 3:0 hesabı ilə qalib gəlib. Qeyd edək ki, Dik Advokatın rəhbərliyi altında Niderland millisi dünya çempionatının final mərhələsinə vəsiqə qazana bilməyib.

# Bakıda keçiriləcək alpaqut üzrə dünya kubokunda 300-dən çox idmançı iştirak edəcək




Noyabrın 24-26-da "Sərhədçi" İdman Olimpiya Mərkəzində alpaqut Turan döyüş sənəti üzrə dünya kuboku yarışları keçiriləcək. Azərbaycan Alpaqut Federasiyasından AZƏRTAC-a bildirilib ki, yarış Gənclər və İdman Nazirliyi, Döyüş Növləri Federasiyaları Assosiasiyasının dəstəyi, Dünya və Azərbaycan Alpaqut federasiyaları tərəfindən təşkil edilir. Dünya kubokunda Azərbaycan, Türkiyə, Almaniya, Qazaxıstan, Türkmənistan, İran, Qırğızıstan, Gürcüstan, Rusiya, Macarıstan, Nepal, Hindistan, Banqladeş Pakistan və Ukraynadan, ümumilikdə 300-dən çox idmançı iştirak edəcək. Yarış alpaqutun aypara, batur, caymaz və gureş versiyaları üzrə keçiriləcək.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir. "Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500